
*Doğma, canım-varlığım qədər sevdiyim*
*Azərbaycanım mənim qibləgahımdır*

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 13 (24.499)
*11 aprel 2026-cı il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Tbilisi səfəri:



## Azərbaycan-Gürcüstan strateji və iqtisadi əməkdaşlığına yeni baxış

Cənubi Qafqazda dayanıqlı sülh və əməkdaşlığın əsas təminatçılarından hesab olunan Azərbaycan ilə Gürcüstan arasında əlaqələr son illərdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İkitərəfli münasibətlər yalnız siyasi dialoq və iqtisadi-ticari əməkdaşlıqla deyil, həm də genişmiqyaslı infrastruktur layihələri ilə özünü aydın şəkildə göstərir. Bu kontekstdə aprelin 6-da Prezident İlham Əliyevin Gürcüstana səfəri və səfər çərçivəsində keçirilən yüksək səviyyəli görüşlər iki ölkə arasında əməkdaşlığın daha da dərinləşməsi üçün mühüm bir mərhələ kimi qiymətləndirilə bilər.

Səfər zamanı həm Gürcüstan Prezidenti Mixeil Kavelaşvili, həm də Baş nazir İrakli Kobaxidze ilə keçirilən görüşlərdə siyasi münasibətlərin yüksək səviyyədə olduğu bir daha vurğulanıb, qarşılıqlı etimad və dostluq prinsiplərinə əsaslanan tərəfdaşlığın gələcək inkişaf perspektivləri geniş şəkildə nəzərdən keçirilib. Əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, “yaşıl enerji”, nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin münasibətlərimizin genişlənməsindəki roluna toxunulub. Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri nəqliyyat və enerji layihələrinin önəmi vurğulanıb, onların strateji və iqtisadi əhəmiyyəti qeyd edilib, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsi baxımından Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin rolu vurğulanıb.

Səhifə ➡ 4

### Elminin nuru ilə xalqına nur olan akademik Zərifə Əliyeva



Səhifə ➡ 3

### Salam, kursant! Vətənin sabahını qoruyanlar



Səhifə ➡ 6

### “Şəhərsalma və Memarlıq İli”: *bələdiyyə ərazilərinin planlaşdırılmasında müasir yanaşmalar*



Səhifə ➡ 7

### Naxçıvan “yaşıl enerji” intibahında



Səhifə ➡ 8

### Hər məhəlləsində tarixin nəfəsi duyulan mədəniyyət ocağı Ordubad



Səhifə ➡ 10

### İsveçli sənədli film rejissoru Mikael Silkeberq Naxçıvanda yeni film çəkilişlərinə başlayıb



Səhifə ➡ 11

# Ulu Öndərin təhsilində Naxçıvan xatirələri

## Naxçıvan Pedaqoji Texnikumu



















Naxçıvan torpağı tarixboyu təbiət gözəllikləri ilə yanaşı, həm də yetişdirdiyi ziyalıları, sənətkarları və dövlət xadimləri ilə dünyaya səs salıb. Bu torpağın yetirdiyi dahi şəxsiyyətləri xatırladığımız zaman, sözsüz ki, müstəqil Azərbaycanın memarı Ulu Öndər Heydər Əliyevin adı ən öndə səslənir. Dahi liderin həyatının və təhsilinin bir qisminin Naxçıvanda keçməsi bu diyarın hər guşədə Onun əl izini və xatirələrini bu günə kimi yaşatmaqdadır. Naxçıvan şəhərinin mərkəzi küçələrinin birində yerləşən ikimərtəbəli, çoxda böyük olmayan bir binada o xatirələr hələ də öz görkəmini qorumaqdadır. Hazırda həmin bina Azərbaycanın ilk peşəkar rəssamı və realist rəssamlıq məktəbinin banisi sayılan Bəhruz Kəngərlinin muzeyi kimi fəaliyyət göstərir. Muzey görkəmli rəssamın təkcə sənətinə yox, həm də tarixə və milli yaddaşına açılan bir ehtiram pəncərəsi sayılır.

1897-ci ildə Naxçıvan qızlar məktəbi kimi fəaliyyətə başlayan bina sonralar Naxçıvan Pedaqoji Texnikumu, daha sonra isə Heyran xanım adına Tibb Texnikumu kimi öz fəaliyyətini davam etdirmişdir. Ulu Öndər də həmin Pedaqoji Texnikumun istedadlı məzunlarından olub. 1974-cü ildə Ümummilli Lider Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyi münasibətilə keçirilən şənliklər zamanı bir vaxtlar təhsil aldığı Pedaqoji Məktəb olan binada fəaliyyət göstərən Tibb Texnikumunda olmuş və kollektivlə görüşmüşdür.

Həmin illəri əks etdirən fotoşəkillər xatirə otağında nümayiş olunur. Muzeyin 18 iyun 2002-ci il tarixdə baş tutan açılış mərasimində Ulu Öndər şəxsən iştirak etmişdir. Bu gün Bəhruz Kəngərli Muzeyinə daxil olan hər kəs bir zamanlar burada addımlayan və gələcək Azərbaycanın taleyində mühüm rol oynayacaq bir gəncin ruhunu da hiss edir. Hər iki şəxsiyyət – həm Ulu Öndər, həm də görkəmli rəssam Bəhruz Kəngərli xalqın tarixində və mədəni yaddaşında əbədi yer tutmağa davam edir.

Muzeydə olarkən muzeyin ikinci mərtəbəsində yaradılmış xatirə otağı Ulu Öndər Heydər Əliyevin təhsil aldığı illəri gözlərimizin önündə canlandırır. Bu otaq Onun Naxçıvanda oxuduğu dövrləri, gənclik illərini və o illərin ab-havasını hələ də saxlamaqdadır. Otaqda Ulu Öndərə məxsus fotoşəkillər, təhsil aldığı illərə aid sənədlər və tarixi arxiv materialları sərgilənir. Muzeydə olarkən Ümummilli Liderin Bəhruz Kəngərli barəsində söylədiyi nitq xüsusilə diqqətimizi çəkir: ***“Yadımdadır, mən həmin bu binada olub orta məktəbdə oxuyarkən Bəhruz Kəngərli haqqında oradanburadan eşidirdik. Amma Bəhruz Kəngərlini üzə çıxaran, təbliğ edən yox idi. Nəyə görə olduğunu bilmirdim, amma onu bilirəm ki, Bəhruz Kəngərli haqqında gənc vaxtımda eşitmişdim. Çünki mən özüm də rəssamlıqla maraqlanırdım. Ona görə də marağım daha çox idi”.***

Rəssamlığa marağı olduğunu söyləyən Ulu Öndərin tələbəlik illərində çəkdiyi qızcığaz şəkli muzeyin xatirə otağında sərgilənməkdədir. Şəklin aşağısında isə “Zərifənin şəkili 12 yaşında çəkilib, 1942-ci il aprelin 27-də axşam saat $09^{30}$-da” sözləri qeyd olunub. Xatirə otağının divarından asılan fotoşəkillərə baxdıqca gah üzümüzdə xəfif bir gülümsəmə, gah da ara-sıra o dövrün fotoların verdiyi təəccüb hissi var idi. Fotoların arasında Ümummilli Liderin Azərbaycan dili və ədəbiyyat müəllimi, ədəbiyyatşünas Lətif Hüseynzadə ilə görüşü zamanı çəkilmiş səmimi kadrlar, təhsil dövründə verilmiş tərifnamələrin nüsxələri də yer alır. Fotoların birində isə 1939-cu ildə Ulu Öndərlə yanaşı, Pedaqoji Məktəbi əla qiymətlərlə bitirən tələbələrin “Şərq qapısı” qəzetində çap edilən fotoşəkilləri, dayısı oğlu Rzaqulu Quluzadə ilə çəkdirdiyi və məzun fotoları yer alır.

Ümummilli Lider Pedaqoji Texnikumda oxuduğu illəri xatırlayarkən onun təhsilində “Şərq qapısı” qəzetinin önəmindən bəhs edərək deyirdi: ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm... O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”.*** Həmin illər barəsində internetdə araşdırma apardığımız zaman Ulu Öndərlə birlikdə 1936-1939-cu illərdə təhsil almış tələbə yoldaşı Firuzə Rzayevanın “Azərbaycan” qəzetinə verdiyi müsahibə həmin illəri detalları ilə gözlər önünə sərir. “Şərq qapısı” qəzetində 1939-cu ildə dərc olunan məzunların fotolarında Ümummilli Liderlə yanaşı, tələbə yoldaşı Firuzə xanımın da fotosu dərc olunur.

Ulu Öndərdən 2 yaş balaca olan Firuzə Rzayeva həmin illəri xatırlayarkən qeyd edir ki, 1936-cı ildə Naxçıvandakı Pedaqoji Texnikuma qəbul olarkən sinifdə çox uşağın olduğunu, bu səbəbdən isə sinifdə dörd-beş nəfərlik dost qruplarının yarandığını qeyd edir. Həmin illərdə 13 yaşlı balaca Heydər həm qrupun, həm də sinfin liderinə çevrilmişdi. Həmin illərdə Azərbaycan dili və ədəbiyyat müəllimi, ədəbiyyatşünas Lətif Hüseynzadə öz tələbəsi Heydəri xatırlayarkən onunla birgə tələbəsi Dövlət Məmmədovun da adını çəkir. Dövlət Məmmədov o illəri xatırlayarkən Ulu Öndərin atası Əlirza bəyin onun təhsilində yaxından iştirak etdiyini və onun köməyi ilə texnikumun imtahanlarında iştirak etdiyini qeyd edir. Dövlət Məmmədov həmin dövrdə Ulu Öndərlə birlikdə Lətif Hüseynzadənin diqqətini çəkdiyini və texnikumun dərs hissə müdiri Murad Tutayukun yanına apardığını və sənədlərini texnikuma qəbul etdiyindən danışırdı. Əslən Culfa rayonunun Saltaq kəndindən olan Dövlət Məmmədov məzun olduqdan sonra müxtəlif yerlərə təyinat almaqlarına baxmayaraq, Ümummilli Liderlə dostluq münasibətlərinin hər zaman davam etdiyini bildirirdi.

Bütün bu xatirələrlə dolu binada daha sonra təmir işləri aparılsa da, binanın xarici görünüşündə, otaqlarının sayında, demək olar ki, böyük dəyişikliklərə yer verilməyib. Bu fakt Naxçıvanın tarixində mühüm bir mədəni-siyasi bağ yaradır: bir tərəfdə Azərbaycan rəssamlığının banisi, digər tərəfdə isə müasir dövlətçiliyin qurucusu. Hər ikisinin yolu bu məkanda bir nöqtədə kəsişir. Bəhruz Kəngərlinin yaradıcılıq ruhu ilə yoğrulmuş bu evin divarları, eyni zamanda dahi şəxsiyyət Heydər Əliyevin gənclik dövrünün xatirələrini də qoruyur.

✍Rafiq TƏHMƏZ
Ayşən ADIGÖZƏLOVA
*Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının IV kurs tələbəsi*



# Prezident İlham ƏLİYEV:

*“Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur.”*



# Elminin nuru ilə xalqına nur olan akademik Zərifə Əliyeva



**Gözlərə işıq, qəlblərə nur bəxş edən, dünyaya gəlişi bahara düşən Zərifə xanım Əliyeva elə bir bahar günündə – 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. Sağlığında xalqı üçün gördüyü işlərlə mənəvi ucalığa yüksələn görkəmli oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, elm adamı, habelə tibb işçisi üçün mənəviyyat, kamillik və müdriklik məktəbidir. Zəngin elmi yaradıcılıq irsi ilə Azərbaycan oftalmologiyasını dünyada tanıdan yüksək intellekt sahibi akademik Zərifə Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir.**

***“... Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər, mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O həmişə mənim qəlbimdədir”.*** Tanrının dünyaya göndərdiyi seçilmiş və xoşbəxt insanlardan biri kimi akademik Zərifə Əziz qızı Əliyeva haqqında oğlu, Prezident cənab İlham Əliyevin kövrək hisslərlə dilə gətirdiyi fikirlərində də bunu görürük. Bu zərif qadın əsl alim ömrü yaşamış, həyatını peşəsinin sirlərini dərindən öyrənməyə həsr etmişdi. Amma onun yaşam fəlsəfəsinin əsasını, heç şübhəsiz, yurduna, torpağına bağlılıq, vətəndaşlıq mövqeyi təşkil edirdi. Bütün mənalı fəaliyyətinin təməlində də bu amillər dayanırdı.

Həyat fəlsəfəsi və mənəvi dünyası kifayət qədər zəngin olan, oftalmologiya elminin inkişafına böyük töhfələr verən akademik Zərifə xanım Əliyevanın uşaqlıq və gənclik illəri qədim tarixə malik yurd yerlərimizdən biri olan Şahtaxtıda keçmişdi. O, çox sayda ziyalılar yetişdirmiş bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən yetərincə faydalanmışdı. Görkəmli dövlət xadimi, səhiyyə təşkilatçısı Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım yüksək vətəndaşlıq mövqeyini atasından, əsl Azərbaycan qadınının nəcib xüsusiyyətlərini isə anası Leyla xanımdan əxz etmişdi. Prezident cənab İlham Əliyev də Zərifə xanım haqqında xatirələrində vurğulayır ki, anasının ailəsi ovaxtkı cəmiyyətin ən ziyalı ailələrindən biri olub: ***“Atasının – Əziz Əliyevin həyatı Zərifə xanım üçün doğma xalqının tarixinin ayrılmaz hissəsi idi. ... Ailədə mənim nənəmin, Leyla xanımın təsiri güclü olub. Zərifə xanım ondan çox şey öyrənmişdi. O, hər şeyi bacarırdı: əla aşpaz kimi xörək hazırlayır, elmi işlə məşğul olurdu; qəlblərə təsir edən oxumağı vardı; zərif və sadə olmağı bacarırdı”.***

Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra Oftalmoloq ixtisasını seçmişdi. Sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktiki vərdişlərə yiyələnmiş, Oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışları dövründə Vətənə, xalqa xeyir verə biləcək ən çətin sahələrdə əzm və iradə ilə çalışmışdır.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində də böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və elmlər namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə “Azərbaycanın Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva! Bu adlar qoşa çəkiləndə iki şəxsiyyətin bir-birinə olan sevgisindən yaranan məhəbbət dastanı, qarşılıqlı sevgi üzərində qurulan çox gözəl bir ailə nümunəsi göz önünə gəlir. Onları bir-birinə bağlayan əbədi eşq nəsillərə örnək idi. Sadəliyi, nəcibliyi, mehribanlığı ilə yaddaqalan Zərifə xanım Ulu Öndərin təkcə həyat yoldaşı deyildi. Bu cəfakeş qadın həm də Ümummilli Liderimizin dostu, sirdaşı, eyni zamanda onunla çiyin-çiyinə dayanaraq öz ömür-gün yoldaşına mənəvi dayaq idi. Ümummilli Lider Heydər Əliyev deyirdi: ***“Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır”.***

Akademik, Əməkdar elm xadimi, M.İ. Averbax adına mükafatın laureatı... Hər biri qürur, iftixar mənbəyi olan bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O nə edirdisə, böyük sevgi ilə edirdi. Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident cənab İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq deyir: “***Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur***”.

Bu gün Zərifə xanımın ruhu şaddır. Azərbaycan xalqına tarixinin ən şanlı zəfərini bəxş edən İlham Əliyev kimi oğul böyütdüyü üçün! Qalib xalqın qalib lideri İlham Əliyevin Şuşada dalğalandırdığı zəfər bayrağı xalqımızın qəlbini xoşbəxtlik hissi ilə qürurlandırır.

Həyatda şərəfli bir ömür yaşayan, Vətənə, torpağa məhəbbəti, sədaqəti, xalqa xidməti ilə yaddaşlarda qalan insanların əməlləri, xeyirxah işləri daim anılır. Tarix məhz belə insanların sayəsində yaranır, onların mənalı ömürləri gələcək nəsillərə örnək, nümunə olur. Bu həyatda yalnız yaxşılığın əbədi olduğunu və bunu həyat amalına çevirən Zərifə xanım Əliyeva kimi. Prezident cənab İlham Əliyev kövrək hisslərlə bu haqda deyir: ***“Bizimlə keçirdiyi son günlərdə Zərifə xanım bilirdi ki, ömrü sona çatır, özü də, bütün həkimlər də tam açıq danışırdılar, üstüörtülü danışıqlardan uzaq idilər. Onun ürəyi elə işıqlı qalırdı. Ölüm fikri onu qorxutmurdu. Onu narahat edən onsuz qalacaq adamlar idi. Gücdən, qüvvədən düşmüşdü. Bütün ömrü boyu olduğu kimi, səssiz bir məğrurluqla əriyirdi. Ölümü də ona həyatı kimi dərin hörmət gətirdi. O, çox gözəl başa düşürdü ki, əbədiyyət qarşısında hər şey kiçikdir, müvəqqətidir, qalan ancaq yaxşılıqdır. Onu sakitləşdirən məhz bu idi”.***

İllər bir-birini əvəz etsə də, əbədiyaşar alimin əziz xatirəsi daim ehtiramla yad edilir, işıqlı və nurlu əməlləri bu gün də minnətdarlıqla xatırlanır. Ömrünün hər günü mənəvi ucalığa bir pillə olmuş Zərifə xanım Əliyeva 1985-ci ildə əbədiyyətə qovuşdu, tarixin daş yaddaşına imzasını elm fədaisi, nur çeşməsi, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı kimi həkk etdi. O, qısa, lakin mənalı, şərəfli bir ömür yaşadı. Elminin nuru ilə xalqına nur olan akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə, eləcə də ictimai-siyasi sahələrdəki misilsiz xidmətlərinə görə xalqımızın, gözlərinə nur verdiyi insanların yaddaşında şəfqətli həkim, səmimi və sədaqətli vətəndaş, eləcə də məğrur Azərbaycan qadını kimi daim yaşayacaqdır.

**Məhəbbət MİRZƏYEVA**

# Tbilisi səfəri:



# Azərbaycan-Gürcüstan strateji və iqtisadi əməkdaşlığına yeni baxış

## Regional inkişafa töhfə: enerji və nəqliyyat sinerjisi

*(əvvəli 1-ci səhifədə)*

Xalqlar, ölkələr arası sülh, mehribanlıq, qardaşlıq prinsipləri üzərində inşa edilən Azərbaycan-Gürcüstan münasibətləri həm regional, həm də beynəlxalq miqyasda strateji əhəmiyyəti ilə seçilir. Bu əhəmiyyəti həm nəqliyyat, həm də enerji strategiyasının reallaşdırılması baxımından dəyərləndirmək olar. Azərbaycan-Gürcüstan enerji tərəfdaşlığı dedikdə, təbii ki, ilk olaraq yaddaşlarda canlanan Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, xüsusən də nəhəng layihə Cənub Qaz Dəhlizi olur. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri vasitəsilə Azərbaycan nefti Gürcüstan ərazisindən keçərək Türkiyənin Ceyhan limanına çatdırılır və oradan dünya bazarlarına ixrac olunur, bu da enerji tranzitinin şaxələndirilməsinə xidmət edir. Eyni zamanda Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu (BTQ) qlobal enerji və nəqliyyat şəbəkəsinin əsas hissələridir ki, bu da regionu Avropa və Asiya arasında birbaşa əlaqələndirir. BTQ-nin illik yükötürmə gücü son modernləşdirmədən sonra, təxminən, 5 milyon tona çatdırılıb ki, bu da tranzit daşımaların həcmini ciddi şəkildə artırır. Nəqliyyat sahəsində yeni addımlardan biri də Azərbaycan və Gürcüstan arasında əməkdaşlıqla yaradılan "BTKI Railways" MMC adlı birgə müəssisədir. Bu müəssisə BTQ xəttinin müəyyən hissələrində infrastrukturu idarə etməklə yük daşımalarının səmərəliliyini və həcmini daha da artırmağı hədəfləyir. Bu layihələr "Orta Dəhliz" adlanan Avropa ilə Asiyanı birləşdirən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas seqmentlərini təşkil edir və iki ölkənin iqtisadi əlaqələrini dərinləşdirir.

Aprelin 6-da Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə mətbuata bəyanatında da ikitərəfli münasibətlərin dərinləşməsinə, əməkdaşlığın genişlənməsinə töhfə verən bütün bu nailiyyətləri diqqətə çatdırdı, Orta Dəhlizin əsas nəqliyyat damarı olduğunu vurğulayaraq bu damarın genişləndirilməsi naminə səylər göstəriləcəyini bildirdi. Sitat: ***"Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Cənub Qaz Dəhlizi də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Biz sonra bu dəhlizlər üzərindən nəqliyyat dəhlizlərini də inşa etdik və bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta Dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir".***



## Strateji tərəfdaşlığın devizi: artan ticarət, genişlənən əməkdaşlıq

Ticarət sahəsində də əlaqələr davamlı olaraq genişlənir. Bu ilin yanvar-fevral aylarında Azərbaycanla Gürcüstan arasında ticarət əməliyyatlarının həcmi 176,6 milyon ABŞ dolları təşkil edib ki, bu, 2025-ci ilin eyni dövründəki göstərici ilə müqayisədə 28 milyon ABŞ dolları və ya 18,9 faiz çoxdur. Gürcüstan ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 2,82 faizi həcmində olub. Bununla da Gürcüstan hesabat dövrü ərzində Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 5-ci pillədə qərarlaşıb. Bu ilin yanvar-fevral aylarında Azərbaycandan Gürcüstana 158,3 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 28,1 milyon ABŞ dolları və ya təqribən, 21,6 faiz çoxdur. Bununla da hesabat dövründə Gürcüstan Azərbaycanın ən çox məhsul ixrac etdiyi ölkələr sırasında 3-cü pillədə qərarlaşıb. Bu göstəricilər iki ölkə arasındakı iqtisadi münasibətlərin yalnız rəsmi anlaşma səviyyəsində qalmadığını, real ticarət və qarşılıqlı investisiyalarla da dəstəkləndiyini göstərir. Hər iki tərəf strategiya və logistika layihələri daha da genişləndirmək, ticarət dövriyyəsini artırmaq və regionun qarşılıqlı əməkdaşlıq potensialını maksimum dərəcədə reallaşdırmaq məqsədi daşıyır. Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə mətbuata bəyanatında da iki ölkə arasında ticarət dövriyyəsinin artımından məmnunluq ifadə etdi, göstəricilərin il sonunadək daha da yüksələcəyini vurğuladı: ***"Biz iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Mən səfərdən öncə arayışlara baxdıqda gördüm ki, keçən il bizim ticarət dövriyyəmiz 800 milyon dollardan çox olmuşdur və bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Belə gedərsə, biz, bəlkə də, ilin sonuna qədər bir milyard rəqəminə də çatacağıq".***

Azərbaycan-Gürcüstan münasibətləri təkcə ikitərəfli iqtisadi əməkdaşlıqla məhdudlaşmır, həm də beynəlxalq təşkilatlar vasitəsilə də uğurla inkişaf etdirilir. BMT, ATƏT, GUAM, QDİƏT və digər beynəlxalq platformalarda ölkələrimiz bir-birinin milli maraqları ilə bağlı məsələlərə hər zaman həssaslıqla yanaşır və dəstək göstərirlər. Bu xüsusda onu da vurğulamaq yerinə düşər ki, Azərbaycanın haqq savaşına çıxdığı 44 günlük Vətən müharibəsində Gürcüstan ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmini üçün əlindən gələni əsirgəmədi. Hazırkı Azərbaycan-Ermənistan normallaşma prosesində və bölgədə dayanıqlı sülhün, əməkdaşlığın formalaşdırılmasında Gürcüstanın rolu mühümdür.

Prezident İlham Əliyevin Tbilisiyə səfəri bir daha göstərir ki, Azərbaycan-Gürcüstan əlaqələri, sadəcə, diplomatik çərçivə ilə məhdudlaşmır, çoxşaxəli və strateji məzmun daşıyan əməkdaşlıq modelinə çevrilib. Bu münasibətlər qarşılıqlı siyasi etimada əsaslanmaqla yanaşı, konkret iqtisadi maraqlar, geniş tranzit imkanları və qlobal əhəmiyyətli enerji layihələri üzərində qurulub. Müzakirə predmetinə çevrilən məsələlər deməyə əsas verir ki, Azərbaycan-Gürcüstan əməkdaşlığı təkcə ikitərəfli münasibətlər kontekstində deyil, bütövlükdə, Cənubi Qafqazın sabitliyi, təhlükəsizliyi və inteqrasiyası baxımından mühüm platformadır. Mövcud dinamika və qarşılıqlı maraqlar fonunda bu tərəfdaşlığın gələcəkdə daha da dərinləşəcəyi və yeni layihələrlə zənginləşəcəyi gözlənilir. Prezident İlham Əliyevin dediyi kimi: ***"Bir sözlə, bizim ikitərəfli gündəliyimiz çox genişdir və bu gündəlik getdikcə genişlənir. Yeni layihələr, yeni fikirlər ortaya atılır və birgə səylərlə biz bunları həll edirik. Bunun əsas şərti və amili, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdir. Bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur. Əminəm ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik".***

**Nail ƏSGƏROV**

# Ali Məclisin növbəti plenar iclası keçirilib





Aprelin 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyinə 5 məsələnin müzakirəsinin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ – “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı” ilə bağlı Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, hökumətin hesabatı Ali Məclisin komitə iclaslarında müzakirə edilib və Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatını təqdim edib.

Ali Məclisin komitə sədrləri təmsil etdikləri komitələrin rəylərini diqqətə çatdırıb, hesabat məruzəsi ətrafında müzakirələr aparılıb.

Müzakirələr zamanı Ali Məclisin deputatları 2025-ci ildə hökumətin gördüyü işlər barədə hesabatın əhatəli hazırlandığını bildirib, sual, təklif və qeydlərini səsləndiriblər. Çıxışlarda ölkə başçısının həyata keçirdiyi siyasətə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin səmərəli fəaliyyətinin muxtar respublikanın sosial-iqtisadi inkişafını daha da sürətləndirdiyi, əldə olunan nəticələrin davamlılığını və qarşıdakı dövr üçün müəyyən edilmiş hədəflərə çatmaq imkanlarını gücləndirdiyi qeyd edilib.

İclasda Baş nazir deputatların səsləndirdiyi sual və təkliflərə münasibət bildirib, qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra müzakirə olunan məsələ ilə əlaqədar Ali Məclisin qərarı səsə qoyularaq qəbul edilib.

Ali Məclis sədrinin birinci müavini gündəlikdə duran ikinci məsələ – “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Qanununun müzakirəsi zamanı qeyd edib ki, “Naxçıvan Muxtar Respublikası Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının müvafiq maddələrindən Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili ilə bağlı müddəalar çıxarılıb. Bu səbəbdən “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi zərurəti yaranıb.

Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verdikdən sonra Qanun səsə qoyularaq qəbul edilib.



“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev layihə barədə məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəlikdə duran dördüncü məsələ – “Naxçıvan Muxtar Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərar layihəsinin müzakirəsi zamanı Bəxtiyar Məmmədov Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli Fərmanı ilə Azərbaycan Respublikasının bəzi dövlət orqanları rəhbərləri və onların müavinlərinin yeni aylıq vəzifə maaşlarının müəyyən edildiyini qeyd edib. Bildirilib ki, analoji olaraq muxtar respublikanın dövlət orqanları rəhbərləri və onların müavinlərinin də yeni aylıq vəzifə maaşlarının müəyyən edilməsi ilə əlaqədar müvafiq qərar layihəsi hazırlanıb.

Məsələ ilə bağlı Qərar səsə qoyularaq qəbul edilib.

Gündəliyin sonuncu məsələsinin müzakirəsi ilə bağlı Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından Ali Məclisə daxil olmuş məlumata əsasən komissiya üzvü Heydərli Elşən Sadıq oğlu vəzifəsindən vaxtından əvvəl azad edilməsi barədə ərizə ilə müraciət edib. Elşən Heydərlinin komissiya üzvlüyündən azad edilməsi məqsədilə “Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası üzvlərinin təyin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 16 noyabr tarixli Qərarında dəyişiklik edilməsi ilə bağlı layihə hazırlanıb.

Sonda Qərar səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin iclası başa çatıb.

# Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib



Aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinin birinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin müzakirəsi olduğunu bildirib.

İclasda qanun layihələri haqqında Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdir müavini Tofiq Rəcəbli məlumat verib.

Gündəlikdə duran məsələlərlə bağlı müzakirələr aparıldıqdan sonra qanun layihələri Ali Məclisin plenar iclasında müzakirəsinə tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan-İğdır-Qars dəmir yolu Naxçıvanın logistik imkanlarını daha da gücləndirəcək

Naxçıvan-İğdır-Qars dəmir yolu üzrə inşaat işləri hazırda sürətlə davam etdirilir. Bu xətt 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbənin regiona bəxş etdiyi daha bir reallığın təcəssümüdür. Dəmir yolu regionun nəqliyyat xəritəsini dəyişməklə yanaşı, Naxçıvanın logistik imkanlarını daha da gücləndirəcək strateji layihə kimi qiymətləndirilir. Bu xətt Azərbaycanı Naxçıvan üzərindən Türkiyə ilə birləşdirən yeni və etibarlı körpü rolunu oynayacaq.

İllik 15 milyon ton yükdaşıma potensialı olacaq Naxçıvan-İğdır-Qars dəmir yolu, sadəcə, nəqliyyat xətti deyil, bütöv bir iqtisadi damardır. Bu xüsusda Zəngəzur dəhlizinin reallaşması Naxçıvanı qardaş regionlar İğdır və Qarsla birlikdə mühüm bir logistik mərkəzə çevirəcək. Həmçinin dəmir yolu xəttinin Bakı-Tbilisi-Qars layihəsi ilə inteqrasiyası nəzərdə tutulub. Beləliklə, bu dəmir yolu xətti daha qlobal xarakter daşıyır və Avropa ilə Asiyanın ticarət əlaqələri üçün olduqca əlverişlidir. Nəticədə, Zəngəzur dəhlizi Mərkəzi Asiya, Xəzər regionu, Azərbaycan və Ermənistanı Türkiyə ilə birləşdirən sosial-iqtisadi, geosiyasi və geostrateji xüsusiyyətlərə malik olduğu üçün regional ticarətə müsbət təsir göstərəcək.



Reallaşacaq bu layihə ilə hazırda mühüm sosial-iqtisadi inkişaf layihələrinin həyata keçirildiyi Naxçıvanın ixrac imkanları da sürətli şəkildə artacaq. Burada istehsal olunan məhsulların daha qısa müddətdə beynəlxalq bazarlara çıxışı mümkün olacaq. Eyni zamanda Azərbaycan üzərindən keçən beynəlxalq yük axınları üçün yeni və daha səmərəli marşrut formalaşacaq.

Ümumilikdə, onu qeyd etmək olar ki, Naxçıvan-İğdır-Qars dəmir yolu xətti yalnız relslərdən ibarət deyil, bu layihə uzun illərin coğrafi məhdudiyyətlərini aradan qaldıran, iqtisadi və strateji baxımdan yeni üfüqlər açan bir yol xəritəsidir. Hazırda Naxçıvan Muxtar Respublikası ərazisində də Zəngəzur dəhlizinin tamamlanması üçün real işlərə başlanılıb. Bu yolun tamamlanması ilə Naxçıvan regionun əsas nəqliyyat və ticarət qovşaqlarından birinə çevriləcək.

# Ordubadda “Qırx pillə” kəhrizi bərpa olunur

Ordubad ərazisində mövcud olan kəhrizlər əsrlərboyu insanların həm içməli suya olan tələbatını ödəyib, həm də kənd təsərrüfatının inkişafına mühüm töhfə verib. Bu baxımdan, bölgədə kəhrizlərin qorunması və bərpası istiqamətində həyata keçirilən tədbirlər xüsusi əhəmiyyət daşıyır. Hazırda isə Ordubadda yerləşən “Qırx pillə” kəhrizində bərpa işlərinə başlanılıb.

Görülən işlərlə bağlı Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin əməkdaşı Lalə Yusifova bildirib ki, Naxçıvan Muxtar Respublikası ərazisində kəhrizlərin qorunması və bərpası daim diqqət mərkəzində saxlanılır. Belə ki, Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tərəfindən qeydiyyata alınan 389 kəhriz mövcuddur. Ötən ilin yanvar-dekabr ayları ərzində kəhrizlərin istismar vəziyyətinin yaxşılaşdırılması məqsədilə Ordubad rayonunda 8, Kəngərli rayonunda 21, Şahbuz rayonunda 1, Naxçıvan şəhərində isə 2 kəhriz olmaqla, ümumilikdə, 32 kəhrizdə cari təmir işləri aparılmışdır. Həmin dövrdə 32 kəhrizdə, ümumilikdə, 4161 metr kürədə təmizləmə və şora qoparma işləri görülmüş, 43 metr uzunluğunda mövcud daşla saybənd hörülmüşdür. Bundan əlavə, 3 quyuda çökmüş hissələr bərpa olunmuş və 2 yeni quyu qazılmışdır.

Lalə Yusifova qeyd edir ki, kəhrizlərin uzunömürlü və dayanıqlı istismarı üçün mütəmadi olaraq baxım və təmir işlərinin aparılması vacibdir. Onun sözlərinə görə, bu sistemlərin qorunması həm əhalinin su təminatı baxımından, həm də kənd təsərrüfatının inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Qeyd olunub ki, kəhrizlərin təmir-bərpası işləri cari ildə də davam etdirilir. Belə ki, 2026-cı ilin ötən dövrü ərzində Kəngərli rayonunda 8 kəhrizdə cari təmir işləri başa çatdırılıb, Ordubad rayonunda isə 1 kəhrizdə təmir işləri hazırda davam etdirilir. Bu müddət ərzində 301 metr kürədə təmizləmə işləri aparılmışdır. Həmçinin yanvar ayında 1 quyuda 6 metr, fevral ayında digər quyuda 4 metr qazma işi tamamlanmış və 2 metr yeni kəhriz kürəsi qazılmışdır.




Hazırda Ordubad ərazisində yerləşən “Qırx pillə” kəhrizində aparılan bərpa işləri də bu istiqamətdə görülən işlərin tərkib hissəsidir. Bildirilir ki, bu kimi layihələr həm tarixi irsin qorunmasına, həm də regionda su təminatının yaxşılaşdırılmasına xidmət edir. Beləliklə, Naxçıvanda, xüsusilə də Ordubad bölgəsində kəhrizlərin bərpası və mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər qədim ənənələrin yaşadılması ilə yanaşı, müasir dövrdə də onların aktuallığını qoruyub saxladığını göstərir.

















# Salam, kursant!

## Vətənin sabahını qoruyanlar

İlk dəfə 2005-ci ildə Heydər Əliyev adına Hərbi Liseydə “Şərq qapısı” qəzeti üçün reportaj hazırlamışdıq. O zaman bu divarlar arasında gələcəyin zabitlərinin formalaşdığını görürdük. Bu gün isə yenidən həmin məkandayam. Aradan keçən 21 il bir həqiqəti daha aydın göstərir: zaman dəyişsə də, bu liseyin ruhu dəyişməz qalıb.

Bu təhsil ocağı Azərbaycanın hərb tarixində xüsusi yerə malikdir. Buradan məzun olan yüzlərlə gənc sonradan ölkənin müdafiəsində mühüm rol oynayıb. Xüsusilə Qarabağın azadlığı uğrunda aparılan mübarizədə liseyin yetirmələri ön sıralarda yer aldı. Onların bir qismi canını Vətən uğrunda fəda edərək ən uca zirvəyə yüksəldi, bir qismi isə qazilik şərəfi ilə tarix yazdı. Bu gün azad torpaqlarda dalğalanan bayrağımızda onların izi, onların nəfəsi var.

Bu gün isə həmin qəhrəmanların yolunu davam etdirən yeni nəsil yetişir. Liseyin həyatına daxil olan kimi insanı ilk qarşılayan nizam-intizam, səliqə və gənc simalarda əks olunan qürurdur. Bu divarlar arasında, sadəcə, şagirdlər yox, gələcəyin zabitləri formalaşır – Vətəni qorumağı həyatının mənasına çevirən gənclər.

Kursantlarla söhbət zamanı bir məqam xüsusilə diqqət çəkir: hər birinin baxışında eyni məqsəd, eyni əzm var. Onlar Azərbaycanı qorumağı özlərinə borc bilirlər. Yaşlarının gənc olmasına baxmayaraq, danışıq tərzlərindəki məsuliyyət hissi, Vətənə bağlılıq və intizam aydın sezilir.

Liseydə gündəlik həyat ciddi qaydalar üzərində qurulub. Səhər tezdən başlayan gün dərslər, fiziki hazırlıq və hərbi məşqlərlə davam edir. Bu rejim kursantları həm fiziki, həm də mənəvi baxımdan möhkəmləndirir. Burada dostluq, yoldaşlıq və qarşılıqlı hörmət yalnız söz deyil, həyat tərzidir.

Müəllimlərlə söhbətlər də göstərir ki, bu lisey, sadəcə, bilik verən müəssisə deyil. Burada xarakter formalaşır, məsuliyyət aşılanır, Vətənə bağlılıq tərbiyə olunur. Ad çəkməyə ehtiyac yoxdur, çünki burada həm müəllimlər, həm də kursantlar eyni amalın daşıyıcısıdır: Azərbaycanı qorumaq.

Liseyin fəaliyyəti ərzində minlərlə gənc bu məktəbdən məzun olub. Onların bir hissəsi hərbi təhsilini xaricdə davam etdirərək peşəkar zabit kimi yetişib. Müxtəlif dövrlərdə baş verən döyüş əməliyyatlarında lisey məzunlarının göstərdiyi şücaət bu təhsil ocağının necə möhkəm təməl üzərində qurulduğunu sübut edir. Vətən uğrunda canından keçən məzunların sayı isə bu məktəbin tarixində şərəfli və eyni zamanda qürurverici bir səhifə kimi qalır.

Liseyin ilk buraxılışında 49 kursant məzun olub. Fəaliyyət genişləndikcə və liseyə maraq artdıqca məzun sayı da artıb. Nəticə etibarilə, Azərbaycanın bütün bölgələrində məktəbin məzunları təmsil olunub və xidməti fəaliyyətini layiqincə yerinə yetirib. Düşmənin cəbhəboyu törətdiyi təxribatların qarşısının alınmasında, eləcə də Aprel döyüşlərində cəsarət göstərən məzunlar sırasında şəhidlik məqamına yüksələnlər də var. Örnək göstərilən məzunlar yetişən kursantlar üçün vətənpərvərlik məktəbi olub. Bu məktəbi bitirənlər isə Qarabağı azad etdilər...

Hərbi liseyi seçən gənclər üçün ən ümdə amal Qarabağın düşmən tapdağından azad edilməsi idi. Bu məqsədlə ömürlərini hərb peşəsinə bağlayanlar üçün qarşıda bir hədəf olub: torpaqlarımızın geri qaytarılması, ölkəmizin suverenliyinin təmin edilməsi. Bu ali məqsəd uğrunda təhsil alan, düşmən qarşısında səngər kimi dayanan oğullar üçün çətinlik, yarılmayan səd anlayışı olmayıb. Xocalının qisasını almaq, yarımçıq qalan arzuları gerçəkləşdirmək, öz yurdundan-yuvasından didərgin düşən insanları torpaqla qovuşdurmaq üçün onlar güclərinə güc qatıblar. Və nəhayət, o gün yetişib. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində şücaət göstərən oğullar sırasında Naxçıvan Hərbi Liseyinin məzunları – qəhrəmanları da olub. Vüsal Vəliyev, Zülfü Rzayev, Allahyar Telmanlı, Məmməd Zamanlı, Yaqub Nəcəfov, Raqib Hüseynov, Amin Gülməmmədov və onlarla zabit şəhidlik məqamına yüksəldi. Sağlamlığını itirənlər də oldu. 2023-cü ilin sentyabrında antiterror əməliyyatı ilə bütöv Vətənimizə qovuşduq, suverenliyimiz bərpa edildi. 30 illik torpaq, yurd həsrətimizə son qoyuldu. Bu zəfərin qazanılmasında hərbi liseyin məzunlarının xidməti danılmazdır və onların adları tarixə qızıl hərflərlə yazıldı. Ulu Öndərin etimad göstərdiyi, yüksək qiymətləndirdiyi gənclər ən ali mərtəbəyə – şəhidlik zirvəsinə ucaldılar, qəhrəman oldular, gələcək nəsillərə örnək oldular. Liseyin məzunlarından 4 nəfər Vətən müharibəsi qəhrəmanı adına layiq görülüb, 1 nəfər “Zəfər” ordeni, 11 nəfər məzun isə “Qarabağ” ordeni ilə təltif olunub. Bu, liseyin ən ali uğur göstəriciləridir.

Liseyin əsasında dayanan ideya dövlətçilik və ordu quruculuğunun mühüm sütunlarından biri kimi formalaşdırılıb. Bu təhsil ocağının yaradılmasında məqsəd gəncləri erkən yaşlardan hərbi ruhda tərbiyə etmək, onları peşəkar zabit kimi yetişdirmək idi. İllər keçdikcə bu yanaşma özünü tam doğruldub. Bu gün Azərbaycan Ordusunun gücü, peşəkarlığı və döyüş qabiliyyəti həmin strateji baxışın nəticəsi kimi özünü göstərir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu daha da güclənir və müasir standartlara uyğun inkişaf edir. Bu isə gənclər arasında hərbçi peşəsinə marağı daha da artırır. Hərbi liseylər isə bu marağın düzgün istiqamətə yönəlməsində mühüm rol oynayır.

Liseyin həyatında addımlayarkən bir daha anlayırsan: burada, sadəcə, kursantlar deyil, Azərbaycanın sabahını qoruyacaq zabitlər yetişir. Bu gənclər vaxtilə qəhrəman məzunların oturduğu partalarda oturur, eyni yataqxanalarda yaşayır, eyni ruhu yaşadırlar.

Salam, kursant!

Sənin addımların Vətənin sabahına aparan yoldur.

Həftənin altıncı günü evlərinə tələsən, bəzən yolda rast gəldiyimiz həmin kursantlara biganə yanaşmayaq. Onlar xüsusi diqqətə və hörmətə layiqdirlər. Çünki bugünkü rahatlığımızın, sabahkı əmin-amanlığımızın təminatçıları məhz onlardır.

Yaşasın Azərbaycan!

**“Şərq qapısı”**



# "Şəhərsalma və Memarlıq İli"



## bələdiyyə ərazilərinin planlaşdırılmasında müasir yanaşmalar

Şəhərsalma fəaliyyəti məskunlaşma sisteminin ərazi-məkan təşkilini, istehsal qüvvələrinin yerləşdirilməsini, tarixi irsin qorunmasını və müasir inkişaf strategiyalarını əhatə edən tarixi bir prosesdir. Bu proses uzunmüddətli inkişaf yolu keçmişdir. İlk sivilizasiyaların yaranmasının rüşeymləri ibtidai icma quruluşu dövründə qoyularaq sosial əlaqələrin möhkəmlənməsi, təbiətlə mübarizə fonunda insanların birləşərək birgə yaşama zərurətini doğurdu. Daha sonra insanların ovçuluq və yığıcılıqdan əkinçilik və maldarlığa keçidi daimi məskunlaşma zərurəti yaratdığından oturaq həyata keçid baş verdi. Bununla da istehsal təsərrüfatının əsası qoyuldu və bitkilərin becərilməsi, heyvanların əhliləşdirilməsi təbii mühitdən asılılığı azaldaraq daimi yaşayış məskənlərinin salınmasına şərait yaratdı.

İnsanların oturaq həyat tərzinə keçməsi, sənətkarlıq və ticarətin formalaşması ilk şəhər mərkəzlərinin yaranmasına zəmin yaratdı. Əhalinin artması, idarəetmə ehtiyacının zəruri hala gəlməsi şəhər dövlətlərini formalaşdırırdı. Tarixin müəyyən zaman dilimlərində şəhərlər ticarət, incəsənət, dini, siyasi mərkəzlər kimi formalaşma, kütləvi köçlər və əhali artımlarının yaratdığı yeni ərazi ideyaları əsasında yaranan sosial nəticələr, sənaye zonalarının yaradılması, müharibələrin yaratdığı fəsadların aradan qaldırılması, funksional zonalaşma kimi mərhələlərdən keçərək dayanıqlı inkişafı üstün tutan, rəqəmsal texnologiyaları, insan mərkəzli planlaşdırma prinsiplərinə əsaslanan müasir şəhərsalma prosesini formalaşdırdı.

Ümumdünya Şəhər Forumu (WUF) davamlı urbanizasiya məsələlərini müzakirə edən, şəhər problemlərinə dair dünyanın qabaqcıl beynəlxalq platformasıdır. 2001-ci ildə Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı tərəfindən dünyanın üzləşdiyi ən aktual problemlərdən biri olan sürətli urbanizasiyanın icmalara, şəhərlərə, iqtisadiyyatlara, iqlim dəyişikliyinə və siyasətə təsirini araşdırmaq üçün yaradılmışdır. Forum BMT tərəfindən iki ildən bir çağırılır və şəhərlərin davamlı inkişafı, mövcud problemlər və innovativ həll yolları barədə qlobal səviyyədə fikir mübadiləsi aparmaqdadır. Bu forum indiyədək Nayrobi, Barselona, Vankuver, Nankinq, Rio de Janeyro, Neapol, Medellin, Kuala Lumpur, Əbu Dabi, Katovitse, Qahirə kimi şəhərlərdə keçirilmişdir. Forumun 13-cü sessiyasının Bakıda təşkil olunması Azərbaycanın urban siyasətinə və şəhər infrastrukturuna beynəlxalq miqyasda töhfə verəcəkdir.

Təsadüfi deyil ki, Azərbaycan təkcə enerji ixracatçısı və geosiyasi mərkəz kimi deyil, həm də dayanıqlı inkişaf, "ağıllı şəhər" modeli və müasir şəhərsalma yanaşmaları həyata keçirən ölkə kimi tanınır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi Azərbaycan dövlətinin zəngin tarixi-mədəni irsinə verdiyi yüksək dəyərin və gələcəyə hesablanmış inkişaf strategiyasının ifadəsidir. WUF13-ün keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətində şəhərlərimizin və digər yaşayış məntəqələrimizin inkişafı, dayanıqlı həyat şəraitinin, sakinlərin rahat və sağlam həyat tərzinin təmin olunmasının daimi diqqət mərkəzində saxlanıldığı, şəhərsalma fəaliyyətinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də dövlətin sosial-iqtisadi siyasətində dayanıqlı inkişafın əsas strateji hədəflərindən biri kimi müəyyən olunduğu və bu istiqamətdə məqsədyönlü fəaliyyətin həyata keçirildiyi qeyd edilmişdir.

Bu gün dövlət başçımızın rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında miqyasına, keyfiyyətinə və sürətinə görə dünyada postmünaqişə dövrünün misli görünməyən və qabaqcıl şəhərsalma standartlarına uyğun kompleks yenidənqurma işləri uğurla həyata keçirilməkdədir. Xüsusilə son illərdə Qarabağda aparılan genişmiqyaslı yenidənqurma işləri Azərbaycanda urban siyasətinin praktiki səviyyədə uğurla tətbiq edildiyini sübut edir. Şuşa, Ağdam, Füzuli şəhərlərinin timsalında işğaldan azad edilmiş bölgələrdə aparılan quruculuq, memarlıq işləri Azərbaycanın gələcəyə yönəlmiş şəhərsalma modelinin real təzahürüdür.

Qloballaşan dünyada şəhərsalma insan həyatının keyfiyyətini artırmaq, ətraf mühiti qorumaq və iqtisadi inkişafı təmin etmək baxımından əsas amillərdən biri kimi xüsusi əhəmiyyət kəsb etməkdədir. Şəhərlər sürətlə böyüyür və inkişaf edir, lakin bu prosesin planlı və dayanıqlı olması gələcək nəsillərin rifahı üçün həyati əhəmiyyət daşıyır. Ölkəmizdə uzun illərdir, şəhər infrastrukturunun modernləşdirilməsi, ictimai məkanların bərpası və mədəni irsin qorunması istiqamətində ardıcıl islahatlar həyata keçirilir. Azərbaycan öz inkişaf strategiyalarında şəhərsalmanı insan mərkəzli, ekoloji və iqtisadi cəhətdən dayanıqlı şəkildə formalaşdırmağı üstün tutur. Bu prosesin dayanıqlı xarakter almasında mülkiyyətçilərin torpağa münasibəti də kifayət qədər önəm daşımaqdadır.

> "Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT-nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir."

Torpağa mülkiyyət hüququ olan subyektlərdən biri kimi bələdiyyələrin bu sahədə müstəsna rolunu qeyd etmək lazımdır. Yerli özünüidarəetməni həyata keçirən qurumlar yerli vergi və ödənişləri müəyyən edərək bu vəsaitləri ərazinin inkişafına sərf edirlər. Yerli səviyyədə sosial müdafiə, mədəniyyət, idman və ekoloji proqramların hazırlanması və icrası bələdiyyələrin səlahiyyətinə daxildir. Bələdiyyələr xüsusən yaşayış məntəqələrinin abadlaşdırılması, yerli yolların təmiri, qəbiristanlıqların saxlanılması və məişət tullantılarının daşınması kimi kommunal xidmətlərin təşkilində rol oynayırlar. Bir sözlə, bələdiyyələr yerli əhəmiyyətli məsələləri icra edərək dövlət siyasətinin həyata keçirilməsinə töhfə verirlər.

Bələdiyyə mülkiyyətində olan torpaqların təyinatı üzrə yerli səviyyədə istifadə xüsusiyyətləri şəhərsalma siyasətində önəmli yer tutur. Yerli özünüidarəetmə orqanlarının fəaliyyəti şəhərsalma və tikinti üzrə insanların həyat fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına, şəhər, qəsəbə və kənd məntəqələrinin səmərəli planlaşdırılmasına, tikintisi və abadlaşdırılmasına, təsərrüfat və sosial infrastrukturun inkişafına yönəlmişdir. Bələdiyyələr şəhərsalma qərarlarında yerli sakinlərin ehtiyaclarını və şikayətlərini nəzərə alaraq vətəndaşlarla müzakirələr, dinləmələr aparmaq yolu ilə vətəndaşların da bu siyasətdə yaxından iştirakını təmin edir. Açıq idarəetmə, vətəndaş iştirakçılığı və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi istiqamətində irəli sürülən çağırışlar yerli özünüidarəetmə orqanlarının legitimliyini və bələdiyyələrə ictimai etimadı artırır.

Qeyd olunan məqamları nəzərə alaraq Ümumdünya Şəhər Forumunun bələdiyyələrin institusional və idarəetmə potensialının inkişafına mühüm töhfə verəcəyi qənaətinə gəlmək olar. Forum çərçivəsində aparılan müzakirələr, qəbul edilən tövsiyələr və formalaşan əməkdaşlıq şəbəkələri yerli özünüidarəetmə orqanlarının, o cümlədən bələdiyyələrin fəaliyyət istiqamətlərinə çoxşaxəli təsir göstərəcəkdir. İlk növbədə, forum beynəlxalq təcrübənin öyrənilməsi və müxtəlif ölkələrin yerli idarətmə modellərinin müqayisəli təhlili nəticəsində bələdiyyələrin idarəetmə mexanizmlərini təkmilləşdirərək strateji planlaşdırma imkanı qazandıracaqdır. Bu isə qərar qəbuletmə prosesində daha sistemli və nəticəyönümlü yanaşmanın formalaşmasına şərait yaradacaq.

İkinci növbədə, forum dayanıqlı inkişaf prinsiplərinin yerli səviyyədə tətbiqinə stimul verir. Şəhər mühitinin inklüzivliyi, ekoloji davamlılıq, iqlim dəyişmələrinə uyğunlaşma və sosial ədalət kimi məsələlərin müzakirəsi bələdiyyələrin fəaliyyət prioritetlərinin yenidən müəyyənləşdirilməsinə təsir göstərir. Nəticədə, yerli inkişaf strategiyaları qlobal gündəliklə uzlaşdırılır və daha kompleks yanaşma formalaşır. Həmçinin Ümumdünya Şəhər Forumu beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq imkanlarını genişləndirir. Bələdiyyələr digər ölkələrin yerli idarəetmə qurumları, beynəlxalq təşkilatlar və maliyyə institutları ilə birbaşa əlaqələr quraraq texniki yardım, investisiya və bilik mübadiləsi imkanlarından yararlana bilirlər. Bu isə yerli layihələrin maliyyələşdirilməsi və innovativ həllərin tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır.

Nəticə etibarilə, Ümumdünya Şəhər Forumu bələdiyyələrin fəaliyyətinə institusional, strateji və normativ səviyyələrdə təsir göstərərək onların idarəetmə keyfiyyətinin yüksəldilməsinə və dayanıqlı şəhərsalma mühitinin formalaşmasına mühüm töhfə verəcək. Yuxarıda qeyd olunanları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, forum yalnız müzakirə platforması deyil, həm də yerli idarəetmə sistemlərinin modernləşdirilməsinə xidmət edən təsirli qlobal mexanizm olacaqdır.

**Billurə AXUNDZADƏ**
*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş şöbəsinin məsləhətçisi*

# Naxçıvan “yaşıl enerji” intibahında

***Azərbaycanın qədim mədəniyyət beşiyi olan Naxçıvan Muxtar Respublikası bu gün, sadəcə, zəngin tarixi abidələri və bənzərsiz təbiəti ilə deyil, həm də müasir dünyanın ən mühüm çağırışlarından biri olan “yaşıl enerji” inqilabı ilə də diqqət mərkəzindədir. Ölkə başçısının Naxçıvanı rəsmi olaraq “yaşıl enerji zonası” elan etməsi regionun gələcək simasını müəyyənləşdirən strateji dönüş nöqtəsi kimi qiymətləndirilir. Muxtar respublikanın coğrafi mövqeyi və il ərzində yüksək günəşli saatların sayı burada alternativ və bərpa olunan enerji mənbələrindən tam həcmdə istifadə etməyə geniş imkan yaradır.***

Hazırda fəaliyyətdə olan 39 meqavatlıq günəş elektrik stansiyaları bu böyük potensialın yalnız ilk addımlarını təşkil edir. Naxçıvanın “yaşıl enerji” gücü təkcə günəşlə məhdudlaşmır. Regionun hidroenerji potensialı da olduqca yüksəkdir. Araz çayı və digər daxili dağ çayları üzərində qurulan su elektrik stansiyaları enerji balansının əsas sütunlarını formalaşdırır. Hazırda Ordubad rayonunda inşası davam edən 36 meqavatlıq Ordubad SES və 15,6 meqavatlıq Tivi SES kimi layihələr suyun təbii axınını iqtisadi rifaha çevirir.

Regionun əlverişli coğrafi mövqeyi, günəşli saatların miqdarı, külək potensialı və su resursları burada bərpa olunan enerji mənbələrinin inkişafına geniş imkan yaradır. 2026-cı ilin əvvəli vəziyyətinə görə Naxçıvan Muxtar Respublikasında beş su elektrik stansiyası, üç günəş elektrik stansiyası, bir külək-günəş hibrid elektrik stansiyası və bir külək elektrik stansiyası fəaliyyət göstərir. Bu stansiyaların ümumi generasiya gücü bərpa olunan enerji üzrə, təxminən, 107-110 MVt təşkil edir ki, bu da muxtar respublikanın ümumi enerji qoyuluş gücünün, təxminən, 44 faizini əhatə edir. Naxçıvanda bərpa olunan enerji mənbələrindən alınan elektrik enerjisinin payı istehsalın 48-55 faizinə (bəzi dövrlərdə daha yüksək həddə) çatır. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində “Yaşıl Enerji Zonası” konsepsiyası uğurla icra olunur və region ekoloji dayanıqlı inkişaf modelinə çevrilməkdədir. Naxçıvan Günəş Elektrik Stansiyası Babək rayonunun Xalxal kəndi ərazisində yerləşir. 2015-ci ildə 20 MVt gücündə istifadəyə verilmiş, 2017-ci ildə 2 MVt artırılaraq 22 MVt-a çatdırılmışdır. Stansiya 40 hektar ərazini əhatə edir və illik istehsal həcmi ilə regionun enerji təminatına ciddi töhfə verir. Kəngərli Günəş Elektrik Stansiyası isə rayonun Qabıllı kəndində yerləşir. 2019-cu ildə 2 MVt olaraq istifadəyə verilmiş, 2020-ci ildə 3 MVt artırılaraq 5 MVt gücünə çatdırılmışdır. Şərur Günəş Elektrik Stansiyası Şərur rayonunun Zeyvə kəndində yerləşir və 2021-ci ildə 5 MVt gücündə istifadəyə verilmişdir. Sonrakı illərdə güc artımı ilə 11 MVt-ə çatdırılıb. Bu üç günəş elektrik stansiyasının ümumi gücü, təxminən, 38-39 MVt təşkil edir. Günəş stansiyaları, əsasən, əkinə yararsız torpaqlarda qurulub və ekoloji cəhətdən təmiz enerji istehsalı üçün nəzərdə tutulub.

Külək enerjisi istiqamətində isə Culfa rayonunun Gülüstan kəndi ərazisində Culfa Külək-Günəş Hibrid Elektrik Stansiyası fəaliyyət göstərir. 2021-ci ildə istifadəyə verilmiş bu stansiya 1,1 MVt gücündədir. Hibrid sistem rayonun enerji tələbatının müəyyən hissəsinin ödənilməsində rol oynayır. Həmçinin rayon ərazisində pilot layihə olan 0,3 MVt gücündə Culfa Külək Elektrik Stansiyası fəaliyyət göstərir. Bu stansiyalar Naxçıvanda külək enerjisinin ilk praktik tətbiqlərindəndir.



Hidroenerji Naxçıvanın “yaşıl enerji” portfelində mühüm yer tutur. Fəaliyyətdə olan beş su elektrik stansiyası arasında 22 MVt gücündə Araz Su Elektrik Stansiyası, 20,5 MVt gücündə Arpaçay-1 Su Elektrik Stansiyası, 20 MVt gücündə Gilançay üzərində yerləşən, derivasiya tipli Biləv Su Elektrik Stansiyası, 4,5 MVt gücündə Heydər Əliyev su anbarı üzərində Su Elektrik Stansiyası və 1,4 MVt gücündə “Arpaçay-2” Su Elektrik Stansiyası yer tutur. Bu stansiyalar xüsusilə yüksək su axını dövrlərində regionun enerji tələbatının böyük hissəsini qarşılayır və hidroenerji ümumi bərpa olunan enerji qoyuluş gücünün əhəmiyyətli hissəsini təşkil edir.

Ümumilikdə, Naxçıvanın “yaşıl enerji” potensialı 1500 MVt-dən çox qiymətləndirilir. Gələcəkdə Naxçıvanın Türkiyə və Avropaya enerji ixracı üçün dəhlizə çevrilməsi planlaşdırılır. Hazırda bir sıra yeni layihələr tikinti mərhələsindədir və tikintilər üçün yeni layihələr planlaşdırılır. Bunlar arasında hər biri 25 MVt olan, ümumilikdə isə enerji potensialı 50 MVt olması nəzərdə tutulan “Şəms 1” və “Qərbi Üfüq” Günəş Elektrik stansiyaları, Ordubad SES (36 MVt), Tivi SES (15,6 MVt) kimi hidro layihələr və beynəlxalq şirkətlərlə əməkdaşlıq çərçivəsində yüzlərlə MVt gücündə böyük günəş və külək layihələri mövcuddur. 2026-cı ilin fevralında 50 MVt gücündə yeni günəş stansiyaları üzrə müqavilələr imzalanıb. Daha uzaq hədəf isə regionda 1000 meqavat və daha böyük həcmdə “yaşıl enerji” istehsal edərək Naxçıvanı beynəlxalq enerji qovşağına çevirməkdir. “Yaşıl enerji”yə keçidin faydaları həm indiki, həm də gələcək nəsillər üçün böyük əhəmiyyət kəsb edir. Karbon qazı emissiyalarının kəskin azalması Naxçıvanın təmiz havasının və zəngin flora-faunasının qorunması deməkdir ki, bu da qlobal iqlim dəyişikliyi ilə mübarizəyə real töhfədir. Eyni zamanda xarici enerji asılılığının sıfıra enməsi və daxili istehsalın artırılması regionun iqtisadi və enerji sabitliyini daha da gücləndirəcəkdir. Görülən bütün bu genişmiqyaslı tədbirlər Naxçıvanın gələcəyini daha işıqlı, təbiətini daha təmiz və iqtisadiyyatını daha sarsılmaz edəcəkdir. Bu enerji intibahı bölgənin qlobal iqtisadiyyata tam inteqrasiyasının və müasir dünyada öz layiqli yerini möhkəmlətməsinin ən böyük təminatıdır.

✍ **Rafiq TƏHMƏZ**



## Naxçıvanda bu günədək 520 hektardan çox sahədə kartof əkini aparılıb



Naxçıvan Muxtar Respublikasında 2026-cı ilin yazlıq əkin tədbirləri çərçivəsində kartof əkini işləri planauyğun şəkildə davam etdirilir. Cari təsərrüfat ilində bu günədək, ümumilikdə, 520 hektardan çox sahədə kartof əkini aparılıb, həmin sahələrin 300 hektarı müasir suvarma sistemləri ilə təmin olunub.

Bu barədə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qeyd edilib ki, ümumi kartof əkin sahələri üzrə Şərur rayonu yüksək göstəricilərlə seçilir. 2026-cı il üçün rayon üzrə pay torpaqlarında, ümumilikdə, 2152 hektar yazlıq əkin sahəsi proqnozlaşdırılıb. Hazırda rayonda 488,9 hektar sahədə kartof əkini aparılıb, əkin prosesi isə davam etməkdədir. Cari ildə rayon üzrə kartof əkin sahəsinin ümumi həcminin 630 hektarı ötəcəyi proqnozlaşdırılır. Mövcud istehsal göstəricilərinə əsasən hər hektardan orta hesabla 50-55 ton məhsul əldə olunması gözlənilir. 2025-ci ilin eyni dövrünün göstəriciləri ilə müqayisədə cari ildə kartof əkin sahələrinin həcminin daha yüksək olacağı nəzərdə tutulur.



# Əsrlərin qoynunda yaşlanmayan Maxta



## Burada ruhu yaşadan təkcə insanlar deyil, yaddaşdır, ənənədir, kökdür

*“Bu evlərin yüz ildən çox yaşı var. Biz onları qoruyuruq ki, tariximiz itməsin” – kənddə bizi qarşılayan Musa Şirəliyev evləri göstərərək sözə başlayır. Bu kəndin girişində insanı daha çox cəlb edir qədim evlər. Sarımtıl rəngə çalan palçıq divarlar, yazın ilk yağışından sonra torpaq qoxusu verən damlar, tarixlə birgə möhkəmlənmiş quruluş. Bu kənddə evlərin əksəriyyəti palçıqdan tikilib, sanki torpağın özündən boylanır. Qapılar köhnə, pəncərələri geniş, şüşələri qırıqdır. Yaxınlaşdıqca içəridə böyük həyatların yaşandığını hiss etdirir bu evlər insana. Köhnə, palçıqlı dar küçələrdən keçərkən ayaq səsləri belə ehtiyatla səslənir, sanki bu sükutu pozmaqdan çəkinirsən. Köhnə məscid və yaxınlığında inşa edilən yeni məscid bu qədim diyarın mədəni irsinin ayrılmaz hissəsidir. Maxta kəndində həyat müasirliklə tarix arasında bir körpü kimidir. Bir tərəfdə qədim ənənələr yaşadılır, digər tərəfdə isə gənclər yeni həyata uyğunlaşmağa çalışır. Nə olsa da, kənd öz ruhunu qoruyub saxlayır. Burada hər daş, hər küçə, hər ev keçmişin bir xatirəsini yaşadır özündə.*



Kəndin yaşlı sakinlərindən olan Musa müəllimlə söhbət edərkən zaman anlayışı tamam dəyişir. Onun danışdığı xatirələr, gördüyü günlər, eşitdiyi hekayələr bu kəndin tarixini, bəlkə də, kitablardan daha canlı şəkildə təqdim edir. O deyir ki, bu torpaq çox şey görüb, amma ən əsası, bu kənd heç vaxt ruhunu itirməyib. Maxtada inşa edilən evlər bir ustalığın nümunəsidir. Palçıq, daş və su qarışığından hazırlanmış bu köhnə tikililər yayda sərin, qışda isti olur. Bu isə təbiətlə harmoniyada qurulmuş həyatın ən ağıllı formasıdır. Daha dəqiq desək, burada insan təbiəti dəyişdirmir, onunla uyğunlaşmağa çalışır.



Kənd sakini Qurban müəllim isə evlərə, sadəcə, “ev” demir. Onlar üçün bu divarlar həm də xatirələrdir. Burada böyüyən uşaqlar, keçirilən bayramlar, edilən dualar, yaşanan sevinclər, kədərlər bu palçıq divarlara hopub. Hər çatlaq, hər iz bir hekayə danışır: “Bu palçıq evləri bizim babalarımız tikib, biz də qoruyuruq. Çünki bu bizim kökümüzdür. Bu kəndi fərqli edən onun nə geniş yollarıdır, nə də müasir binaları. Onu tanıdan, yaddaqalan edən palçıqdan tikilmiş qədim evləridir. Bu evlər, sadəcə, yaşayış yeri deyil, keçmişin nəfəsini bu günə daşıyan canlı abidələrdir”. Onun titrək səsindəki qürur və məsuliyyət hissi bu kəndin niyə hələ də yaşadığını izah edir.



Deyir ki, kəndin dar, palçıqlı küçələri ilk baxışdan sadə görünsə də, əslində, dərin bir məna daşıyır: “Bu yollar illər boyu insanların gediş-gəlişinə şahidlik edib, sevincə də, kədərə də bələd olub. Yağışlı havalarda palçığa bürünən bu küçələr kənd həyatının səmimiyyətini özündə əks etdirir”.





Maxta kəndinin adının mənasına gəlincə, sakinlər deyir ki, bəzi tədqiqatçılara görə, kəndin adının bir neçə fərqli mənası var. Maxta adı qrammatik formasına görə Maxta/maq-tağ/q/ şəklində olmaqla, iki hissədən ibarətdir. Sözün ilk hissəsi olan max-maq formasının danışıq şəkli (şifahi nitq) hesab edilir. “Tağ/taq/” isə tağ, qol, hissə mənası verir. Oykonim isə “mahdeh” sözünun təhrif olunmuş formasıdır. Kəndin adını fars dilində mah (qala, düşərgə) və deh (kənd) sözləri ilə bağlayıb “qala kənd”, yaxud düşərgə qədim yaşayış yerində yaranmış kənd kimi izah edirlər. Maxta (makta) türk dillərində isə “üzərində kəlam yazılmış lövhə” mənasında işlədilir. Fikirlərə görə, bunlar arasında ən çox yayılmış isə “paxta” (pambıq) sözüdür ki, zamanla bu söz “maxta” sözü ilə əvəzlənib.

Adından da göründüyü kimi, insan bu kəndin hər döngəsində bir az da keçmişə yaxınlaşır, hər addımda müasir dünyanın səs-küyündən uzaqlaşır. Əsrlərin səsini bu günə daşıyan, köhnə evləri ilə yaddaqalan Maxtanın mərkəzində yerləşən qədim məscid isə sanki bu kəndin ürəyidir. Burada insanlar yalnız ibadət etmir, həm də görüşür, söhbət edir, xatirələrini bölüşür. Məsciddən ucalan azan səsi isə bu kəndin ruhudur: sakit, davamlı və dəyişməz.

Musa Şirəliyev deyir ki, bu ruhu yaşadan təkcə insanlar deyil, həm də yaddaşdır, ənənədir, kökdür. Bu kənd keçmişin bir parçası olsa da, eyni zamanda gələcəyə saxlanmalı bir mirasdır: “Bu məscid 1861-ci ildə inşa edilib. 1928-ci ildə isə buranı anbar ediblər. Lakin kənd sakinləri haradan gəldiklərini, hansı kökə bağlı olduqlarını unutmayıb, məscidi dağıntılardan qoruyaraq onu sonradan təmir ediblər. Bura təkcə ibadət yeri deyil, həm də tarix kitabının canlı səhifəsidir”.

Dağətəyi ərazidə, Araz çayının sol sahilində yerləşən Maxta kəndi İlk Tunc dövrünə aid yaşayış yeridir. Yer səthindən 2 m hündürlükdəki təpədən ibarət olan, əkin sahələri, qərb tərəfdən kanalla məhdudlaşan bu yaşayış məskəni bir vaxtlar cənub-qərb hissəsindən çəkilən dəmir yolu vasitəsilə dağıdılmaq təhlükəsi ilə üz-üzə qalıb. 74 yaşlı Musa kişi deyir ki, yerli sakinlərin etirazından sonra dəmir yolu digər tərəfdən çəkilib və I Kültəpə (və ya I Maxta Kültəpəsi) tarixi abidəsi qorunaraq saxlanılıb. Abidə isə ilk dəfə 1985-ci ildə qeydə alınıb və 1988-1989-cu illərdə burada aparılan arxeoloji qazıntılar nəticəsində daş və çiy kərpicdən hörülmüş tikinti qalıqları, boz rəngli qab nümunələri, dən daşları həvəng və dəstələr, obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişləri, obsidian ox ucluqları, sürtgəclər, ocaq qurğusunun qalıqları və sair maddi mədəniyyət nümunələri aşkar olunub. Həmçinin kəşfiyyat xarakterli tədqiqatlar zamanı yaşayış yerinin əhatə etdiyi ərazidə daşdan tikilmiş qədim məbəd, onun içərisində isə daş bütlər aşkar edilib. Abidə e.ə. III minilliyə aid edilir. Yaşayış yerinin keramika məmulatı və tikinti qalıqları Kür-Araz mədəniyyətinin orta mərhələsinə aiddir.

Maxta sakitliyi, təmiz havası və zəhmətkeş insanları ilə seçilən dağətəyi kənddir həm də. Sakinlər günə təsərrüfat işləri ilə başlayır. Kimisi mal-qaranı sahələrə aparır, kimisi isə əkin sahələrində çalışır. Bu kənddə zəhmət həyatın ayrılmaz hissəsidir, həyat sakit və təmkinli keçir. Burada hər şey təbiətlə uyğunlaşaraq davam edir. İnsanlar bir-birinə daha yaxın, daha doğmadır. Qapılar açıq, ürəklər isə daha genişdir. İnsanları gördükcə anlayırsan: müasirlik təkcə asfalt yoldan ibarət deyil, ən möhkəm iradə elə torpaqdan, insanın zəhmətindən yaranır. Elə ən dərin tarix də palçıq divarların içində gizlənir. O palçıq divarlar illərin izini içərisində daşıyaraq bu kəndin neçə-neçə nəsillərə şahidlik etdiyini, zamanın dayandığını, insanın öz köklərinə qayıtdığını, həyatın sadəliyində dərin məna tapdığı bir yeri göstərir. Kənddən ayrılarkən yalnız bir hiss insanda qalır: bəzən irəli getmək üçün geriyə, daha dəqiq desək, köklərə baxmaq lazımdır.

✍ **Ceyhun MƏMMƏDOV**

# Hər məhəlləsində tarixin nəfəsi duyulan mədəniyyət ocağı ORDUBAD



## Beş məhəllədən başlayan şəhərin tarixi



***“Ordubad Azərbaycanın incisidir!”*** Ümummilli Lider Heydər Əliyevin sözləridir. 1980-ci ildə Ordubada səfəri zamanı böyük qürur və məhəbbətlə səsləndirmişdi bu fikri. Bəli, Ordubad təkcə qədim bir şəhər deyil, o, əsrlərin yaddaşını yaşadan, milli-mənəvi dəyərlərini bu günə qədər qoruyub saxlayan, hər məhəlləsində tarix qoxan bir mədəniyyət ocağıdır. Daş küçələri, səssiz həyətləri, bir-birinə söykənən evləri və adları tarixə çevrilmiş məhəllələri ilə Ordubad, doğrudan da, Azərbaycanın incisi olmağa layiqdir. Bu dəyərli söz bu gün də öz təsdiqini tapıb və qədim Ordubad şəhəri ICESCO tərəfindən İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilib. Bu qərarın 2026-cı il fevralın 11-də, Daşkənddə keçirilən ICESCO-nun 13-cü sessiyasında qəbul olunması Ordubadın artıq təkcə Azərbaycanın deyil, bütün İslam dünyasının ortaq mədəni sərvəti kimi tanındığını göstərir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təqdim etdiyi nominasiya əsasında “Ordubad” Tarix-Memarlıq Qoruğunun bu siyahıya salınması bir daha sübut edir ki, burada qorunan hər daş, hər məhəllə, hər həyət qədim şəhər mədəniyyətinin canlı nümunəsidir.

Yolumuzu tez-tez tarixin nəfəsi duyulan qədim Ordubad rayonuna salırıq. Bu dəfə məqsədimiz, sadəcə, bu gözəlliyi seyr etmək deyil, eyni zamanda bu diyarın hər məhəlləsinin tarixini dinləmək, sakinlərin xatirələrində yaşayan Ordubadı oxucularımıza çatdırmaq idi.

Ordubad şəhərində bizi şəhərin mərkəzində, əsrlərə şahidlik edən çinar ağacının altında əyləşən sakinlər qarşıladı. Yaxınlaşıb salam verdik, gəlişimizin məqsədini – Ordubadın məhəllələri haqqında yazı hazırladığımızı söylədik. Sözümüzü eşidən kimi üzlərdə təbəssüm yarandı. Çünki ordubadlı üçün öz rayonu barədə danışmaq, sadəcə, söhbət deyil, həm də qürur məsələsidir. Elə ilk cümlələrdən hiss olunurdu ki, burada hər kəs yaşadığı məhəllənin tarixini ürəklə danışmağa hazırdır.



Zəhra VƏLİYEVA

Həmsöhbət olduğumuz 74 yaşlı rayon sakini, sənətkar Cabir Cabbarov Ordubadın tarixindən söhbət açdı. Onun sözlərinə görə, Ordubadın qədimliyini sübut edən ən mühüm dəlillərdən biri şəhərin əsrlərboyu qorunub saxlanılan məhəllə quruluşudur. Cabir müəllim bildirir ki, qədim dövrlərdə Ordubad beş əsas məhəlləyə bölünüb: Kürdətal, Sərşəhər, Mingis (Minkəs), Ambaras və Üçtürləngə.

Qeyd edək ki, XIII əsrdə Ordubad artıq qəsəbə kimi tanınırdı və bu məhəllələr şəhərin memarlıq strukturunun əsasını təşkil edirdi. Onun sözlərinə görə, məhəllələrin quruluşu təsadüfi deyil. Şərq şəhərsalma ənənələrinə uyğun olaraq küçələr düz xətt üzrə deyil, qövsvari formada salınıb. Maraqlıdır ki, şəhərin hansı nöqtəsində olmağından asılı olmayaraq, yollar insanı mütləq mərkəzə, yəni Cümə məscidinin yerləşdiyi meydana aparır. Hər məhəllənin özünəməxsus döngələri, kiçik meydançaları olub və bu meydanlar məscid, çeşmə və qocaman çinarların ətrafında formalaşıb.

Cabir Cabbarov söhbət zamanı şəhərin adının mənşəyinə də toxunur. Onun sözlərinə görə, “Ordubad” adının kökü “ordabatan” ifadəsi ilə əlaqələndirilir. Rəvayətlərə əsasən qədim dövrlərdə yaşayış məntəqəsinin bir hissəsi su altında qalıb və bu hadisə yerli yaddaşda iz buraxıb.

Cabir müəllim bildirir ki, VII-VIII əsrlərdən etibarən şəhərin adı mənbələrdə artıq “Ordubad” kimi qeyd olunmağa başlayıb. Bu fakt həm adın qədimliyini, həm də bölgənin əsrlərboyu yaşayış məskəni olduğunu göstərir. Onun fikrincə, şəhərin adı ilə bağlı söylənilənlər təkcə dildə deyil, həm də Ordubadın keçdiyi mürəkkəb tarixi mərhələlərin özüdür. Tarixi mənbələrə əsasən Ordubad eyniadlı çayın dərin dərəsi boyunca iki hissəyə ayrılıb. Şəhərin ilkin mərkəzi çayın sağ sahilində, yüksək təpə üzərində yerləşən “Qala” kompleksi olub. Bu hissə daha qədim hesab edilir. Lakin XVII əsrdən etibarən şəhərin ictimai və inzibati mərkəzi çayın sol sahilinə yəni Cümə məscidinin ətrafına köçürülüb.



Cümə məscidi ətrafında formalaşan ictimai məkanda vaxtilə mədrəsə və ticarət mərkəzi Qeysəriyyə fəaliyyət göstərib. Bu ərazi əsrlərboyu Ordubadın ictimai həyatının ürəyi sayılıb. Şəhərin memarlıq xüsusiyyətləri isə onu Azərbaycanın digər bölgələrindən fərqləndirir. Ordubadın yaşayış evləri orta əsrlərə xas qapalı malikanə formasındadır. Evlər xarici aləmdən təcrid olunmuş şəkildə tikilib, həyətlərin içərisində isə meyvə bağları salınıb. Çiy kərpicdən inşa edilən bu tikililərin dərin oxvari eyvanları, incə işləmələri diqqəti cəlb edir. Xüsusilə maraqlı məqamlardan biri evlərin giriş qapılarında quraşdırılan metal döymə qapı zəngləridir. Qadınlar üçün nəzərdə tutulan “zəncirbab”, kişilər üçün isə “taqqılbab” adlanan bu elementlər insanda maraqlı düşüncə doğurur. Belə ki, həmin qapı zəngləri müxtəlif – qalın və incə səslər çıxararaq ev sahibinə kimin – qadın, yoxsa kişi qonağın gəldiyini bildirir. Qeyd edək ki, Ordubad evlərinin əksəriyyətində həyətin dərinliyində yerləşən yeraltı çeşmələrə enmək üçün xüsusi pilləkənlər düzəldilib ki, xalq arasında bunlara “Qırxayaq” deyilir. Bütün bu memarlıq elementləri şəhərin planlı, lakin təbii relyeflə uzlaşan quruluşunu tamamlayır. Cabir müəllim söhbətin sonunda bir fikri xüsusilə vurğulayır: “Ordubadın hər daşı danışır. Sadəcə, onu dinləməyi bacarmaq lazımdır”.



Bu faktlar da bir daha göstərir ki, Ordubad təkcə keçmişin yaddaşı deyil, gələcəyə bir mirasdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən tarixi-mədəni irsin qorunmasına göstərilən diqqət bu kimi şəhərlərin simasının qorunmasına və dünyaya tanıdılmasına mühüm töhfə verir. Ordubadın hər küçəsi, hər məhəlləsi bir tarix səhifəsidir və bu səhifələrin qorunması hər birimizin vəzifəsidir.



## "Hamlet" tamaşası mövsümə damğa vurub



Aprelin 4-də Naxçıvan Dövlət Milli Dram Teatrı səhnəsində nümayiş olunan "Hamlet" tamaşası tamaşaçılar tərəfindən böyük coşqu ilə qarşılanıb. Dünya dramaturgiyasının incilərindən sayılan Vilyam Şekspirin bu məşhur əsəri teatrsevərlərin xüsusi marağına səbəb olub və zal, demək olar ki, tam dolu olub. Tamaşanın quruluşçu rejissoru və eyni zamanda baş rol – Hamlet obrazının ifaçısı, Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru Mir Qabil Əkbərovla tamaşa barədə həmsöhbət olduq. O bildirdi ki, əsərin hazırlanma müddətinin uzun çəkəcəyi gözlənilsə də, yaradıcı heyət bu işi cəmi üç aya başa çatdıra bilib. Tamaşa əvvəlcə bədii şuranın baxışından keçib və aprelin 4-də uğurla səhnəyə qoyulub. Onun sözlərinə görə, son 15 ilin statistikasına nəzər salsaq, bu qədər tamaşaçının eyni vaxtda teatra axın etməsi nadir hallarda müşahidə olunub. Zalın tamamilə dolu olması həm teatrın, həm də tamaşanın uğurunun göstəricisi kimi qeyd olunub.

Rejissor, eyni zamanda həm quruluşçu, həm də baş rol ifaçısı kimi çıxış etməyin çətinliklərindən də danışıb: "Həm tamaşaya quruluş vermək, həm də Hamlet kimi mürəkkəb bir obrazı canlandırmaq mənim üçün müəyyən çətinliklər yaratdı. Lakin bütün bunlara baxmayaraq, nəticə uğurlu alındı".



Mir Qabil Əkbərov xüsusi olaraq qeyd edib ki, tamaşaya marağın böyük olması səbəbindən həmin gün bilet əldə edə bilməyənlərin sayı da az olmayıb. Bir çox tamaşaçı bilet qıtlığı səbəbindən geri qayıtmalı olub. Bu isə tamaşaya olan yüksək tələbatın göstəricisi kimi dəyərləndirilir. Tamaşaçılar tərəfindən səsləndirilən əsas istəklərdən biri isə tamaşanın yenidən nümayiş olunmasıdır. Qeyd olunub ki, "Hamlet" tamaşası teatrın repertuarına daxil edilib və ənənəyə uyğun olaraq bir neçə il ərzində səhnədə qalacaq. Artıq növbəti nümayiş üçün may ayı planlaşdırılır və ilkin olaraq 16 may tarixi nəzərdə tutulur. Hətta teatr kollektivi mövsümün bağlanışını məhz bu tamaşa ilə etməyi planlaşdırır. Bununla yanaşı, yaradıcı heyət gələcəkdə tamaşanı xarici ölkələrdə də təqdim etməyi düşünür. Planlara əsasən növbəti illərdə tamaşanın Moskva və digər türkdilli ölkələrdə nümayişi istiqamətində danışıqlar aparılması nəzərdə tutulur.

Sonda rejissor bildirib ki, bu kimi mürəkkəb və dərinməzmunlu əsərlərin səhnələşdirilməsi bir daha göstərir ki, Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivi istənilən çətin yaradıcılıq tapşırığının öhdəsindən uğurla gəlmək gücünə malikdir.



## 16 yaşlı fortepianoçunun solo konserti keçirilib



Aprelin 3-də Naxçıvan Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Naxçıvan Şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbinin VII sinif şagirdi Aliyə Abutalıblının Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Səssizlikdən doğan musiqi" adlı solo konserti keçirilib. Gənc ifaçı səhnədə nümayiş etdirdiyi yüksək ifaçılıq bacarığı və səhnə mədəniyyəti ilə tamaşaçıların böyük rəğbətini qazanıb. Konsertboyu səsləndirilən əsərlər Aliyənin musiqiyə olan dərin bağlılığını və daxili dünyasının zənginliyini aydın şəkildə əks etdirib. Onun fortepiano arxasında sərgilədiyi peşəkar ifa tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, Aliyənin musiqiyə olan marağı hələ uşaqlıq illərindən özünü göstərməyə başlayıb. Səsə, ahəngə və musiqiyə qarşı xüsusi həssaslığı valideynlərinin də diqqətini cəlb edib və onun bu sahədə təhsil almasına şərait yaradılıb. Həmin dövr ərzində müxtəlif tədbirlərdə, konsert proqramlarında və müsabiqələrdə uğurla iştirak edən gənc ifaçı bir sıra fəxri fərmanlar, diplomlar və mükafatlarla təltif olunub. Bu uğurlar onun seçdiyi sənət yolunda nə qədər əzmli və məqsədyönlü olduğunu bir daha göstərir.

Konsertin sonunda öz ifası ilə bağlı təəssüratlarını bizimlə bölüşən Aliyə Abutalıblı qeyd etdi ki, bu səhnədə çıxış etmək onun üçün həm həyəcanlı, həm də qürurverici oldu. Bu mənim ilk solo konsertim idi və uzun müddət bu gün üçün hazırlaşmışdım. Səhnədə olmaq mənim üçün çox dəyərli təcrübə oldu. Bu yolda mənə dəstək olan müəllimlərimə və valideynlərimə dərin minnətdarlığımı bildirirəm.

## Qəlbi sənətlə döyünən hər kəs üçün heç bir zirvə əlçatmaz deyil



Dünya çoxları üçün rənglərin, formaların və sonsuz vizual mənzərələrin vəhdəti olsa belə, elə insanlar var ki, onlar dünyanı gözləri ilə yox, qəlbləri ilə rəngləyirlər. Rəsmiyyə Xəlilova və Küşvər Əliyeva məhz belə insanlardandır. Onların həyat hekayəsi qaranlığın içində itmək yerinə, o qaranlıqdan öz səsləri ilə işıq tapmaq hekayəsidir. Bəzən taleyin insanlara yazdığı sətirlər ağır olur. Amma elə insanlar da var ki, həmin sətirləri pozub yenidən yazmağı bacarırlar. Rəsmiyyə və Küşvər də həyat kitablarının səhifələrini musiqinin dili ilə yenidən yazan insanlardandır.

Onların pəncərəsindən boylanan günəş, əslində, qəlblərini isidən o həlim mehribanlıqdır. Həyatı görmədən sevmək, bəlkə də, çoxlarına çətin görünə bilər. Amma bu iki xanım sübut edir ki, insanın dünyanı hiss etməsi üçün gözlərindən daha güclü bir duyğu var – qəlbin səsi.

Həm Rəsmiyyənin, həm də Küşvərin musiqiyə olan sevgisi uşaqlıq illərindən qəlblərində kök salıb. Elə həyatın ilk çağlarından etibarən onların dünyasında səslər xüsusi bir yer tutub. Bu yol isə həm onların iradəsi, həm də ətraflarında olan insanların sevgisi və dəstəyi ilə işıqlanıb. Valideynlərinin qayğısı, müəllimlərinin inamı onların addımlarını möhkəmləndirib, qəlblərindəki o incə musiqi sevgisinin sönməsinə imkan verməyib.

Onları birləşdirən, bir araya gətirən də məhz musiqi olub. Rəsmiyyə və Küşvər, eyni zamanda çox yaxın dostdurlar. Birinin səsindəki ümid digərinin qəlbinə güc verir, birinin addımındakı cəsarət o birinin yolunu işıqlandırır. Onların dostluğu həyatın bütün anlarında bir-birinə dayaq olmaq deməkdir.

2023-cü ildən etibarən isə bu iki gənc xanımın səsi səhnələrdə səslənməyə başlayıb. Səhnəyə çıxmaq onlar üçün uzun illər ürəklərində böyütdükləri arzunun gerçəkləşməsidir. Mikrofon qarşısına keçəndə artıq qəlblərindəki bütün hisslər səsə çevrilir. Tamaşaçıların alqışları isə onlar üçün ən böyük mükafatdır. Hər alqış onların qəlbində yeni bir ümid, yeni bir güc oyadır.

Əlbəttə, bu yolun əvvəlində tərəddüdlər də olub. Bəzən öz-özlərinə "Bacara bilərikmi?" sualını veriblər. Amma zaman keçdikcə anlayıblar ki, insanın qarşısında duran ən böyük maneə bəzən elə qorxuların özüdür. Onlar bu qorxunu geridə qoyaraq sübut ediblər ki, fiziki məhdudiyyət arzuların qarşısını ala bilməz.

Rəsmiyyə və Küşvərin çıxışları, əslində, həyatın ən çətin anlarında belə, insanın ayaqda qala biləcəyinin canlı sübutudur. Onların səsi qaranlığın içində yanan bir çıraq kimidir. Həmin çıraq təkcə onların yolunu yox, onları dinləyən hər kəsin qəlbini də işıqlandırır.

## İsveçli sənədli film rejissoru Mikael Silkeberq Naxçıvanda yeni film çəkilişlərinə başlayıb



İsveçli sənədli film rejissoru Mikael Silkeberq Naxçıvanda yeni film layihəsinin çəkilişlərinə başlayıb. Bununla bağlı yerli media nümayəndələri ilə keçirilən görüşdə rejissor həm əvvəlki yaradıcılıq təcrübəsindən, həm də üzərində çalışdığı yeni sənədli film barədə geniş və əhatəli məlumat verib. O, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilova, eləcə də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə göstərilən səmimi qonaqpərvərlik və layihəyə verilən dəstəyə görə təşəkkürünü bildirib. Rejissor vurğulayıb ki, Naxçıvana artıq üçüncü dəfə səfər edir və hər səfər onun üçün yeni təəssüratlar, yeni kəşflərlə yadda qalır. Onun sözlərinə görə, bu möhtəşəm diyarın zəngin tarixi və mədəni irsi hər dəfə daha dərindən öyrənilməyə imkan yaradır.

Mikael Silkeberq qeyd edib ki, onun Naxçıvanla ilk tanışlığı əvvəlki sənədli filmi "Nuhun ayaq izləri" ilə başlayıb. Təxminən 40 dəqiqə davam edən bu film Naxçıvanı insan sivilizasiyasının qədim beşiklərindən biri kimi təqdim edir. Rejissor bildirib ki, həmin ekran əsərində tarix və əfsanənin bir-birinə qovuşduğu, mədəni yaddaşın isə minilliklər boyu qorunub saxlanıldığı bir məkan təsvir olunub. O, Naxçıvanı bu filmdə canlı arxiv kimi təqdim etməyə çalışdığını qeyd edib. Burada təbiət, tarixi abidələr və mədəni yaddaş bir-birini tamamlayır.

Filmin çəkilişləri zamanı regionun bir sıra mühüm məkanları lentə alınıb. Rejissor, xüsusilə "Azərbaycanın Maçu Piçusu" adlandırılan Əlincəqala kimi möhtəşəm qalaları, Ordubadın tarixi şəhər mühitini və burada yerləşən unikal Qeysəriyyə kompleksini, insan yaradıcılığının ən qədim izlərini özündə daşıyan Gəmiqaya qayaüstü təsvirlərini, eləcə də mənəvi dəyərlərin bu gün də yaşadıldığı Əshabi-kəhf ziyarətgahını xüsusi vurğulayıb. Bununla yanaşı, film Naxçıvanın zəngin intellektual və bədii irsini də əhatə edib. Bu kontekstdə Hüseyn Cavidin fəlsəfi irsi və Bəhruz Kəngərlinin incəsənətdəki həssas yanaşması ekran işində əks olunub.

Rejissorun sözlərinə görə, "Nuhun ayaq izləri" filmi təkcə Azərbaycanda deyil, Avropa ölkələri də daxil olmaqla müxtəlif məkanlarda nümayiş etdirilib və bu unikal regionun beynəlxalq auditoriyaya tanıdılmasına mühüm töhfə verib. O bildirib ki, həmin film vasitəsilə Naxçıvanı uzaq və aztanınan bir məkan kimi deyil, dərin tarixi davamlılığa, zəngin mədəniyyətə və çoxqatlı insan hekayələrinə malik bir diyar kimi təqdim etməyə çalışıb.

Mikael Silkeberq hazırda üzərində işlədiyi yeni sənədli filmin "Yaddaşda yaşayan Vətən" adlandığını diqqətə çatdırıb. Bu layihə Cənubi Qafqazda məcburi köçkünlük yaşamış azərbaycanlıların mədəni irsinə həsr olunub. Rejissor bildirib ki, film, əsasən, mədəniyyətin yaddaş vasitəsilə necə qorunduğunu, sənət və ənənələrin insanların həyatında hansı rolu oynadığını araşdırır.

Onun sözlərinə görə, Naxçıvan bu film üçün xüsusi əhəmiyyət daşıyan çəkiliş məkanıdır. Bu seçim yalnız coğrafi yaxınlıqla deyil, eyni zamanda regionun zəngin mədəni, musiqi və kulinariya ənənələri ilə bağlıdır. Çəkilişlər zamanı qeyri-maddi mədəni irsin bir sıra mühüm elementləri xüsusi diqqət mərkəzində saxlanılır. Bunlara yallı rəqsi – birlik və kollektiv yaddaşın ifadəsi, ənənəvi mətbəx kimliyin nəsildən-nəslə ötürülməsinin bir forması kimi, aşıq sənəti, xüsusilə Aşıq Ələsgərin yaradıcılığı, həmçinin təsviri incəsənət sahəsində Mirzə Qədim İrəvaninin irsi daxildir.

Rejissor vurğulayıb ki, bu layihə onun üçün yalnız sənədli film deyil, həm də dərin insani məna daşıyan bir araşdırmadır. O qeyd edib ki, əsas məqsədi insanların doğma torpaqlarından ayrı düşdükləri halda belə mədəniyyətlərini necə qoruyub saxladıqlarını anlamaqdır. Onun fikrincə, mədəni kimlik yalnız fiziki məkanla bağlı deyil, o, musiqidə, poeziyada, rəqsdə, sənətkarlıqda və gündəlik həyatın müxtəlif elementlərində yaşayır.

Mikael Silkeberq çıxışında Skandinaviya ilə Cənubi Qafqaz regionu arasında müəyyən oxşarlıqların da mövcud olduğunu bildirib. O qeyd edib ki, hər iki məkanda insanlar təbiət, tarix və yaddaş arasındakı əlaqəni dərindən dərk edir. Bu baxımdan, hər iki regionda mədəniyyətin formalaşmasında təbii mühit və tarixi yaddaş mühüm rol oynayır.

Sonda rejissor yeni sənədli filmin daha geniş bir mədəni dialoqun tərkib hissəsi olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu layihə Şimal və Cənub arasında, Skandinaviya ilə Azərbaycan arasında mədəni körpü rolunu oynayacaq. Rejissor bildirib ki, film vasitəsilə beynəlxalq auditoriya Azərbaycanı yalnız xəbərlər prizmasından deyil, onun zəngin mədəniyyəti, insanları və insani hekayələri vasitəsilə tanıyacaq. O əlavə edib ki, bu hekayələr təkcə bir xalqa deyil, bütün bəşəriyyətə aid olan universal dəyərləri əks etdirir.

**"Şərq qapısı"**

## Şahmatçılar arasında xatirə turniri keçirilib



Naxçıvan Şahmat Mərkəzində Aprel döyüşləri şəhidlərinin xatirəsinə həsr olunmuş şahmat üzrə tempo turnir keçirilib. Yarışda oğlanlar və qızlar olmaqla, ümumilikdə, 74 şahmatçı iştirak edib.

Yarışın əvvəlində Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra turnirə start verilib.

Mükafatçılar İsveçrə sistemi üzrə 7 turdan ibarət mübarizə nəticəsində müəyyənləşib. Nigar Qənbərli 6,5 xalla turnirin qalibi olub. Aktivində 6 xalı olan Həsən Məmmədov və Fərəməz Quliyev yarışı müvafiq olaraq ikinci, üçüncü yerlərdə tamamlayıblar.

Mükafatlandırma zamanı turnirdə iştirak edən şəhid övladları Ələkbərov Əsəd Bağır oğlu və Novruzlu Bahadur Ümid oğlu fəxri fərman və hədiyyə ilə təltif olunublar. Baş hakim FIDE hakimi Röya Cəlilovaya təşəkkürnamə təqdim olunub. İlk üç yerin sahibləri və yaş kateqoriyaları üzrə fərqlənən iştirakçılar diplom və medallarla mükafatlandırılıblar.



## Naxçıvanın “Ləvənt Bulut” döyüş klubu kikboks turnirinin mükafatçısı olub



“Sərhədçi” İdman Olimpiya Mərkəzində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş kikboksinq üzrə kadetlər, yeniyetmələr, gənclər və böyüklər arasında çempionat və birincilik keçirilib.

Azərbaycan Kikboksinq Federasiyasının dəstəyi və “Xüsusi təyinatlı” idman klubunun təşkilatçılığı ilə baş tutan turnirdə 44 klub və 400-ə yaxın idmançı iştirak edib.

Turnirdə Naxçıvan Muxtar Respublikasını iki komanda təmsil edib. “Ləvənt Bulut” döyüş klubu baş məşqçi Etibar Qəribovun rəhbərliyi altında 8 qələbə sayı ilə komanda hesabında üçüncü yerə sahib çıxıb və kubokla mükafatlandırılıb. “Naxçıvan-Şərur” idman klubunun iki idmançısı isə üçüncü yerə layiq görülüb.

Turnirdə, həmçinin “Naxçıvan-Şərur” idman klubunun məşqçisi Kazım Cabbarova federasiya tərəfindən qeydiyyatın təsdiqi ilə bağlı sertifikat təqdim olunub.

# Bu gənclərin sədası hələ çox yüksəklərdən gələcək

Bakı şəhərində voleybol üzrə 14 və 18 yaşadək oğlanlar və qızlar arasında keçirilən Azərbaycan birinciliyi Naxçıvan təmsilçilərinin parlaq qələbələri ilə yadda qalıb. Ölkə miqyaslı bu nüfuzlu yarışda Naxçıvan Muxtar Respublikası iki fərqli yaş qrupunda iki güclü kollektivlə – oğlanlarda “Naxçıvan”, qızlarda isə “Möminə xatun” komandaları ilə təmsil olunub. Hər iki komandamız yüksək peşəkarlıq nümayiş etdirərək yarışı fəxri kürsüdə tamamlayıblar.

14 yaşadək oğlanlardan ibarət “Naxçıvan” komandası turnir boyu nümayiş etdirdiyi əzmkar oyunla bütün rəqiblərini geridə qoyub. Gərgin keçən qrup mərhələsi və pley-off qarşılaşmalarından sonra finala vəsiqə qazanan təmsilçilərimiz, həlledici görüşdə də rəqibinə heç bir şans tanımayıblar. Finalı böyük üstünlüklə tamamlayan voleybolçularımız Azərbaycan birinciliyinin qızıl medallarına sahib çıxaraq çempionluq sevincini yaşayıblar.

Turnirin digər uğurlu nəticəsi isə 14 və 18 yaşadək qızlar arasında mübarizə aparan “Möminə xatun” komandasından gəlib. Üçüncü yer uğrunda keçirilən qarşılaşmada rəqibi üzərində inamlı qələbə qazanan voleybolçu qızlarımız bürünc medalları Naxçıvana gətirməyi bacarıblar.

Azərbaycan birinciliyində tarix yazan naxçıvanlı gənc voleybolçular və onların məşqçiləri qazandıqları uğurları, keçirdikləri həyəcan dolu anları “Şərq qapısı” ilə bölüşüblər.

14 yaşlı oğlanlardan ibarət çempion komandanın üzvü Əhməd Məmmədli qələbəyə gedən yolun heç də asan olmadığını vurğulayıb: “Bu qələbə bizim üçün aylarla çəkdiyimiz zəhmətin bəhrəsidir. Hər oyun bir imtahan idi, rəqiblər güclü, atmosfer gərgin idi. Lakin biz meydançaya çıxanda bir-birimizin gözlərindəki inamı görürdük. Komanda yoldaşlarımın hər birinin dəstəyi mənə güc verirdi. Final oyununda bütün enerjimizi ortaya qoyduq. Mənim üçün ən unudulmaz an finalda ilk qazandığımız saniyələr oldu. O an anladıq ki, biz bunu bacaracağıq! İndi hədəfim daha böyükdür, Naxçıvanın adını beynəlxalq arenalarda ucaltmaq”.

14 yaşlı qız voleybolçumuz Gültəkin Kərimli məğlubiyyətdən qələbəyə uzanan o kritik dəqiqələri belə xatırlayır: “Oyunun başlanğıcı bizim üçün bir az çətin oldu, ilk seti rəqibə verdik. Amma ruhdan düşmək bizə yaraşmazdı. Hər top uğrunda sona qədər döyüşdük. Bürünc medal bizim üçün böyük bir qürurdur və bu uğur bizə sübut etdi ki, əzm olan yerdə imkansız heç nə yoxdur. Bu, sadəcə, başlanğıcdır”.

18 yaşlı qızlar komandasının üzvü Fatimə Mirzəyeva isə yarımfinaldakı çətinliyin onları daha da bərkitdiyini qeyd edib: “Yarımfinalda məğlub olmaq bizə bir az ağır gəldi, amma biz o anı kədərlənmək üçün deyil, səhvlərimizdən nəticə çıxarmaq üçün istifadə etdik. Üçüncülük uğrunda keçirilən həlledici qarşılaşmada bütün gücümüzü, iradəmizi birləşdirdik. Bürünc medal qazanmaq həm böyük bir sevinc, həm də gələcək üçün motivasiya mənbəyidir. Biz başa düşdük ki, hər oyun bir təcrübə, hər addım bir inkişafdır. Durmadan çalışmağa və Naxçıvan voleybolunun gücünü göstərməyə davam edəcəyik”.

Komandaların bu uğurunda böyük pay sahibi olan məşqçi Pərvin Səfərli gənclərin nümayiş etdirdiyi peşəkarlıqdan danışıb: “Komandalarımızın hər iki yaş qrupunda göstərdiyi şücaət məni hədsiz qürurlandırır. 14 yaşlı oğlanlarımızın çempionluğu və qızlarımızın hər iki yaş kateqoriyasında bürünc medal qazanması təsadüfi deyil. Bu, gənclərimizin sonsuz çalışqanlığının, günlərlə davam edən intizamlı məşqlərinin və ən əsası, sarsılmaz komanda ruhunun nəticəsidir. Əminəm ki, bu istedadlı uşaqlar gələcəkdə voleybol tarixində yeni səhifələr açacaqlar”.

Bu tarixi uğur gənc idmançılarımız üçün gələcəkdə qatılacaqları daha böyük beynəlxalq turnirlər üçün tükənməz motivasiya mənbəyi və örnək bir yol xəritəsidir. İnanırıq ki, bu gənclərin sədası hələ çox yüksəklərdən gələcək!



# “Sabahın alimləri” müsabiqəsinin qalibləri: Azərbaycan Bayrağını dünyada dalğalandırmaq istəyirik

***Azərbaycanın elm və təhsil mühitində ən nüfuzlu yarışlardan biri sayılan “Sabahın alimləri” XV Respublika Layihə Müsabiqəsi bu il də gənc istedadların kəşfi ilə yadda qaldı. 760 layihənin mübarizə apardığı, gərgin rəqabət şəraitində keçən builki final mərhələsində Naxçıvan Dövlət Universitetinin nəzdindəki İngilis dili Təmayüllü Gimnaziyanın komandası bütün rəqiblərini geridə qoyaraq fəxri kürsünün ən yüksək pilləsinə ucaldı. Gimnaziyanın XI sinif şagirdləri Hüseyn Tahirov və Kənan Məmmədzadənin hazırladıqları “ReseptPlus” layihəsi münsiflər tərəfindən müasir tibbin innovativ həlli kimi qiymətləndirilərək qızıl medala layiq görüldü. Bu qələbə həm də may ayında ABŞ-də keçiriləcək dünyanın ən böyük elm sərgisi olan Regeneron ISEF-ə birbaşa vəsiqə deməkdir. Qələbə sevinci yaşayan gənc qaliblər öz təəssüratlarını “Şərq qapısı” ilə də bölüşdülər.***

Hüseyn Tahirov komanda olaraq çox yaxşı nəticə əldə etdiklərini qeyd edir: “760 layihə arasından birinci seçilmək bizim üçün uzunmüddətli zəhmətin, gecə-gündüz apardığımız işin və inamımızın təsdiqidir. Bu prosesdə hər birimiz öz üzərimizdə çox çalışdıq, ideyalarımızı dəfələrlə yenidən gözdən keçirdik və layihəmizi daha da mükəmməlləşdirməyə çalışdıq. Daha əvvəl robototexnika üzrə Panama və Türkiyədə ölkəmizi təmsil etməyim və həmin təcrübələr mənim üçün çox dəyərli olub. Lakin bu qələbənin yeri tam başqadır, çünki burada dostlarla komanda ruhunun və ortaq zəhmətin nəticəsini gördük”.



Hüseyn “ReseptPlus” layihəsi üzərində işləyərkən qarşılarına qoyduqları məqsədlərdən söz açır: “Biz, həqiqətən, faydalı, insanların həyatını asanlaşdıra biləcək bir layihə ortaya qoymaq istəyirdik. Hədəfimiz hər zaman ən yüksək pillə idi və bu gün həmin nəticəni əldə etmək böyük sevinc hissi yaşadır. İndi isə ən böyük həyəcanımız ABŞ-də keçiriləcək mərhələ ilə bağlıdır. Azərbaycanın elmi potensialını okeanın o tayında ən layiqli şəkildə nümayiş etdirmək, ölkəmizin gənclərinin nəyə qadir olduğunu göstərmək üçün səbirsizliklə həmin günü gözləyirəm”, – deyə qeyd edir.

Kənan Məmmədzadə bu yola çıxanda layihənin aktuallığına və ideyalarının cəmiyyət üçün faydalı olacağına inandıqlarından bəhs edir: “Ən böyük üstünlüyümüz isə layihə rəhbərimizlə birlikdə düzgün strategiya qurmağımız və komanda daxilində qarşılıqlı dəstəyin olması idi. Hər birimiz öz səhmimiz üzrə çalışaraq layihənin inkişafına töhfə verdik. Final mərhələsində adımızın birinci elan olunması həyatımın unudulmaz anlarından biri oldu. O anda keçirdiyim qürur və sevinc hissini sözlə ifadə etmək, həqiqətən, çətindir. Bu qələbə bizə göstərdi ki, əgər insan öz məqsədinə inanırsa və əzmlə çalışırsa, ən böyük uğurlara da çata bilər”.

Kənan artıq üzərlərində daha böyük məsuliyyət olduğunu düşünür: “Qarşıda beynəlxalq mərhələ bizi gözləyir və biz Azərbaycanı layiqincə təmsil etməyə hazırlaşırıq. Layihəmizi daha da təkmilləşdirərək, yeni ideyalar əlavə edərək ölkəmizin adını bir daha yüksək səviyyədə təqdim etmək və Azərbaycan Bayrağını beynəlxalq arenada qürurla dalğalandırmaq üçün var gücümüzlə çalışacağıq”.

Layihənin may ayında ABŞ-də keçiriləcək beynəlxalq sərgidə ölkəmizi təmsil edəcək olması isə, ümumiliklə, Naxçıvanın təhsil mühiti üçün də əlamətdar və qürurverici hadisədir. İnanırıq ki, Hüseyn və Kənan qarşıdakı beynəlxalq mərhələdə də ölkəmizi layiqincə təmsil edəcək, Azərbaycan gəncliyinin bilik və bacarığını dünya ictimaiyyətinə bir daha nümayiş etdirəcəklər.

✍ **Elnurə CƏFƏROVA**


### İtmişdir

Babək rayonu, Cəhri qəsəbəsində yaşayan Quliyeva Rəngizər Qulu qızına məxsus JN-2576$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşayan Mehdiyev Rəfail Vəliqulu oğlunun adına olan JN-333$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Babək qəsəbə sakini Quliyev Murtuzəli Məhərrəm oğlunun adına olan JN-550 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Qasımov Tofiq Hüseyn oğlunun adına olan 75-BG-105 dövlət nömrə nişanlı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm kənd sakini Vəliyev Təvəkkül Yaqub oğlunun adına olan JN-2355 nömrəli, 10300058 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərabad kəndində yaşamış Həsənov Qabil Lətif oğlunun adına olan JN-211 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Əliyev Sabir Eynulla oğlunun adına verilmiş JN-745$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Babək qəsəbə sakini Quliyev Murtuzəli Məhərrəm oğlunun adına olan JN-032$^{A}$ nömrəli, 10301018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Aşağı Buzqov kəndində İsmayılov Süleyman Xudu oğlunun adına olan JN-237$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dəstə kənd sakini Zeynalov Vaqif Cəbrayıl oğlunun adına olan JN-477$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Vənənd kəndində yaşamış Hüseynov Məmmədhüseyn Cəbrayıl oğlunun adına olan JN-890$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Çalxanqala kəndində yaşamış Məmmədova Məsməbəyim M.Həmid qızının adına olan JN-0066 nömrəli, 10300018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Paşayev Nizaməddin Mahmud oğlunun adına olan Naxçıvan şəhəri, Hacıniyyət kəndi, 8-ci küçə, ev 19-a məxsus olan 10 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Nəbizadə Xəyyam Qənbər oğlunun adına olan SQ-0018266 nömrəli xidmətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Salmanova (Hüseynova) Əfruz Sadıx qızının adına olan JN-404$^{A}$ və JN-404$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Zeynalov Elbəyi Əkbər oğlunun adına verilmiş JN-180$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində yaşamış Məmmədov Məmməd Səməd oğlunun adına olan JN-1319$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Allahverdiyev Bayram Mirzə oğluna məxsus JN-1256 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan kənd sakini Seyidov Bəhruz Ağabala oğluna məxsus JN-363$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.



ŞƏRQ QAPISI

Baş redaktor müavini: Məmməd BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Tiraj: 550. Sifariş № 70

Nömrəyə məsul: Ceyhun Məmmədov, Turan Məmmədli, Əhməd Əhmədov

Dizayner: Həbibə Allahverdiyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.